Bizim Xəzər Dəniz Gəmiçiliyinin donanması Azərbaycanın çox böyük sərvətidir. O, böyük işlər görür və gələcəkdə də görəcəkdir.

Heydər ƏLİYEV

DƏNİZ

"AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ" QSC-nin qəzeti

20 aprel 2018-ci il № 29-32 (9215) | Qəzet 1931-ci ildən nəşr olunur | www.seanews.az | Qiyməti 50 qəpik

BU SAYIMIZDA

RUSİYA DƏNİZ GƏMİÇİLİYİ REGİSTRİNİN BAŞ DİREKTORU:
"AZƏRBAYCANIN 160 İLLİK TARİXƏ MALİK GƏMİÇİLİK ŞİRKƏTİNDƏ MÜASİR İDARƏETMƏ SİSTEMİNİN TƏTBİQİNDƏ ƏLDƏ OLUNAN UĞURLAR TƏQDİRƏLAYİQDİR"

Aprelin 18-də "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-də tanınmış təsnifat cəmiyyətlərindən olan Rusiya Dəniz Gəmiçiliyi Registrinin baş direktoru Konstantin Palnikovla görüş keçirilib.

Səh. 2

TÜRKMƏNİSTAN RESPUBLİKASININ ÖLKƏMİZDƏKİ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ GƏMİÇİLİKDƏ OLUB

Aprelin 6-da Türkmənistan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Mekan İşanquliyevlə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-də görüş keçirilib.

Səh. 3

PORTRET CİZGİLƏRİ
DİNLƏMƏYİ BACARAN İNSANIN DƏNİZLƏ BAĞLI TALEYİ

Uzun illər dənizçilik sahəsində uğurlu, əvəzsiz işlər görmüş, dünyanın yarısından çoxunu gəzmiş, ensiklopedik yaddaşa malik, Azərbaycan Dövlət Dəniz Akademiyasının baş müəllimi Mahir Tahirovun vasitəsilə, çox dəyərli bir insanla tanış oldum.

Səh. 4

GƏMİÇİLİKDƏ TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİNƏ CİDDİ DİQQƏT YETİRİLİR

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin rəhbər şəxsləri üçün "Təhlükəsizlik Günü" keçirilib.

Toplantıda 2018-ci ilin I rübündə dünya gəmiçiliyində qeydə alınan hadisələrə nəzər salınıb, onların başvermə səbəblərindən danışılıb.

Səh. 5

UNUTSAQ, UNUDULARIQ
FƏXR EDİRƏM Kİ...



Şərəfli tarixə malik Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi bu il 160 illiyini qeyd edəcək. Fəxr edirəm ki, soyadını daşıdığım nəsildə də taleyini Gəmiçiliklə bağlayan, inkişafına töhfəsini verən fədakar adamlar olmuşdur.

Səh. 6

GƏMİÇİLİKDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 95 İLLİYİNƏ HƏSR OLUNMUŞ MİNİ-FUTBOL TURNİRİ KEÇİRİLİR

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin işçiləri və struktura daxil olan digər qurumların əməkdaşları arasında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş mini-futbol turniri keçirilir.

Səh. 8

PREZİDENT İLHAM ƏLİYEV VƏTƏNƏ, XALQA VƏ DÖVLƏTƏ SƏDAQƏT ANDI İÇDİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 18-də Milli Məclisdə andiçmə mərasimi keçirilib.

Andiçmə mərasimində Azərbaycanın dövlət rəsmiləri, hökumətin üzvləri, Milli Məclisin deputatları və Prezidentin ailə üzvləri iştirak ediblər.

Prezident İlham Əliyevi müşayiət edən fəxri kortej Azərbaycan Respublikası Prezidentinin andiçmə mərasiminin keçirildiyi Milli Məclisə yola düşdü.

Ümumxalq səsverməsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Heydər oğlu Əliyevin andiçmə mərasimi açıq elan olundu.

Mərasim iştirakçıları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi hərarətlə qarşıladılar.

Silahlı Qüvvələrin əsgərləri Azərbaycan Respublikasının dövlət bayrağını və Azərbaycan Prezidentinin ştandartını (bayrağını) təntənəli marşın sədaları altında səhnəyə gətirdilər.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev və Konstitusiya Məhkəməsinin hakimləri səhnəyə dəvət olundular.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad ABDULLAYEV çıxış edərək dedi:

- Hörmətli xanımlar və cənablar.

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi 2018-ci il 17 aprel tarixli qərarı ilə Azərbaycan Respublikası Prezidenti seçkilərinin yekunlarına dair Mərkəzi Seçki Komissiyasının nəticələrini təsdiq edərək, cənab İlham Heydər oğlu Əliyevi Azərbaycan Respublikasının Prezidenti seçilmiş cənab İlham Heydər oğlu Əliyev Azərbaycan Respublikası Konstitusiyasının 103-cü maddəsinə uyğun olaraq, Konstitusiya Məhkəməsi hakimlərinin iştirakı ilə andiçməyə dəvət olunur.

Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV əlini Azərbaycan Respublikası Konstitusiyasının üzərinə qoyaraq and içdi:

- Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm!

Azərbaycan Respublikasının dövlət himni səsləndi.

Sonra Prezident müqəddəs Qurani-Şərifə əl basaraq and içdi:

- Əlimi Qurani-Şərifə basaraq and içirəm: Azərbaycan xalqının əsrlər boyu yaratdığı milli mənəvi dəyərlərə və ənənələrə sadiq qalacağam, onları daim uca tutacağam.

Prezident İlham Əliyev təzim edərək, Azərbaycanın dövlət bayrağını öpdü.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev andiçmə mərasimində nitq söylədi.

Bununla da andiçmə mərasimi başa çatdı.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ANDİÇMƏ MƏRASİMİNDƏ NİTQİ

- Hörmətli xanımlar və cənablar.

İlk növbədə, bir daha mənə bu seçkilərdə göstərilən yüksək etimada görə doğma Azərbaycan xalqına dərin təşəkkürümü bildirmək istəyirəm. Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss etmişəm və hiss edirəm. Bu dəstək mənə güc verir. Mən bu dəstəyə arxalanıram və xalqı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da xalqa və Vətənə ləyaqətlə xidmət edəcəyəm.

Prezident seçkiləri Azərbaycan xalqının iradəsini əks etdirib. Azərbaycan xalqı görülən işlərə yüksək qiymət vermişdir, görülən işlərə səs vermişdir. İnkişafa, tərəqqiyə, təhlükəsizliyə, gələcək inkişafımıza səs vermişdir. Seçkilər ədalətli və şəffaf şəkildə keçirilmişdir. Seçkilərdən əvvəl yerli və beynəlxalq təşkilatlar tərəfindən keçirilmiş rəy sorğuları, seçkilər günü yenə də beynəlxalq və yerli təşkilatlar tərəfindən keçirilmiş "exit-poll"lar seçkilərin rəsmi nəticələri ilə üst-üstə düşür. Bu, bir daha onu göstərir ki, seçkilər xalqımızın iradəsini, onun fikirlərini əks etdirir.

Mən 2003-cü ildə, prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər mənə xalq etimad göstərərsə, mən ulu öndər Heydər Əliyev siyasətinə sadiq qalacağam, bu siyasəti davam etdirəcəyəm. Mən fəxr edirəm ki, xalq mənə inandı, məni dəstəklədi və mən də öz növbəmdə sözlərimə əməl etdim. Son 15 il ərzində Azərbaycanda hərtərəfli inkişaf təmin edilmişdir. Bunun əsas şərti ondan ibarətdir ki, biz Ulu Öndərin yolu ilə gedirik. Onun qoyduğu yol yeganə düzgün yoldur və Azərbaycanın müstəqillik tarixi bunun əyani sübutudur.

Son 15 il ərzində bu yolla gedərək biz böyük uğurlara imza atdıq, Azərbaycan xalqı təhlükəsizlik, sabitlik şəraitində yaşamışdır. Bu 15 il ərzində dünyanın müxtəlif bölgələrində, bizim bölgəmizdə, Avropada çox təhlükəli proseslər baş verirdi: qanlı toqquşmalar, müharibələr, vətəndaş müharibələri, dövlət çevrilişləri. Yəni, təhlükəsizlik baxımından son 15 il çox gərgin keçmişdir. Azərbaycanda isə xalqımız təhlükəsizlik şəraitində yaşamışdır. Biz daxili risklərin hamısını aradan qaldırdıq, xarici risklərdən isə özümüzü qoruya bilmişik, bu gün də qoruyuruq, əminəm ki, bundan sonra da qoruyacağıq. Azərbaycan xalqı bu 15 il ərzində sabitlik şəraitində yaşamışdır. Bu da inkişafımız üçün əsas şərtdir. Biz görürük ki, sabitlik pozulanda inkişafdan söhbət gedə bilməz. Sabitlik pozulanda xarici müdaxilə baş verir, ölkələr idarəolunmaz vəziyyətə düşür, qardaş qanı tökülür və ölkələrin gələcəyi böyük sual altına düşür. Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır və bizim siyasətimizdir. Ona görə xalq-iqtidar birliyi bizim uğurlarımızın əsas şərtidir. Azərbaycan bu gün dünya miqyasında sabitlik məkanı, sabitlik adası kimi tanınır və bu, bizim böyük nailiyyətimizdir.

Bu 15 il ərzində Azərbaycanda demokratik inkişaf çox sürətlə getmişdir, Azərbaycanda bütün azadlıqlar təmin edilmişdir. Hesab edirəm ki, bu 15 il demokratik inkişaf baxımından çox uğurlu illər olmuşdur. Biz siyasi islahatları dərinləşdirərək bütün azadlıqları – söz azadlığını, mətbuat azadlığını, sərbəst toplaşma azadlığını, siyasi fəaliyyət azadlığını təmin etmişik. Təkcə onu demək kifayətdir ki, bu gün Azərbaycan vətəndaşlarının 80 faizi internet istifadəçiləridir və internet Azərbaycanda azaddır. Yəni, demokratik inkişafla bağlı bizim siyasətimiz çox düzgün siyasətdir və bizim milli maraqlarımızı təmin edir. Biz bunu kiminsə xoşuna gəlmək üçün yox, ona görə edirik ki, Azərbaycanda siyasi islahatlar daha da dərinləşsin, Azərbaycan xalqı həmişə öz taleyinin sahibi olsun, necə ki, bu gün Azərbaycan xalqı öz taleyinin sahibidir və seçkilər, onun nəticələri bunu bir daha təsdiqləyir.

Deyə bilərəm ki, son 15 il ərzində Azərbaycanda siyasi mübarizə mədəniyyəti istiqamətində də müsbət meyillər müşahidə olunur və prezident seçkiləri kampaniyası bunu bir daha göstərir. Namizədlərin çıxışlarında kifayət qədər kəskin tənqidi fikirlər səslənmişdir, mən bunu alqışlayıram, müsbət hal kimi qiymətləndirirəm. Bu, siyasi mübarizənin düzgün istiqamətdə inkişaf etməsindən xəbər verir. Qeyd etməliyəm ki, prezident seçkiləri kampaniyası zamanı namizədlər tərəfindən qaldırılmış məsələlərə diqqətlə baxılacaq və dəyərli təkliflər nəzərə alınacaqdır. Bir sözlə, bu 15 il ərzində biz çalışmışıq ki, Azərbaycanda siyasi mübarizə sivil qaydada təmin olunsun və buna böyük dərəcədə nail ola bilmişik. Fürsətdən istifadə edərək, seçkilərdə iştirak etmiş bütün namizədlərə öz təşəkkürümü bildirirəm, onlara gələcək fəaliyyətlərində uğurlar diləyirəm.

O ki qaldı, antimilli qruplaşmaya, onlar tam marginallaşıb. Bu seçkilər bir daha göstərdi ki, onların Azərbaycanın siyasi səhnəsində yeri yoxdur. Onların yerini Azərbaycan xalqı çoxdan müəyyən edib, bu da tarixin zibilxanasıdır. Xarici qrant, ianə hesabına fəaliyyət göstərən, öz dövlətinə qarşı çıxış edən, bir çox hallarda milli satqınlıq nümayiş etdirən ünsürlərə Azərbaycan xalqı bir daha öz yerini göstərdi. Seçkilərdən əvvəl və seçkilərdən sonra onların təşkil etdikləri yığıncaqlar bir daha onu göstərir ki, Azərbaycan xalqı heç vaxt imkan verməz ki, xaricdən idarə olunan qruplaşma Azərbaycanda hansısa mövqeyə sahib olsun. Biz bundan sonra da demokratik inkişafla bağlı səylərimizi artıracağıq, gələcək fəaliyyətimizdə də bu istiqamət önəmli yer tutacaqdır.

Azərbaycan bu 15 il ərzində uğurla inkişaf edib. Azərbaycan xalqı birlik, həmrəylik nümayiş etdirib. Bizim gələcək fəaliyyətimiz üçün milli ideologiyamız əsas rol oynayır. Azərbaycançılıq məfkurəsi Azərbaycanda tam bərqərar olub, Azərbaycan xalqı vahid milli ideya ətrafında birləşib və ölkəmiz çox uğurla inkişaf edir. Azərbaycanda dinlərarası, millətlərarası münasibətlər nümunəvi xarakter daşıyır. Azərbaycanda bütün xalqların, dinlərin nümayəndələri bir ailə kimi mehribanlıq şəraitində yaşayır və bundan sonra da yaşayacaqdır. Bizim siyasətimiz və cəmiyyətin istəkləri bu istiqamətdə atılacaq addımları da şərtləndirəcək.

Azərbaycan ölkə daxilində dinlərarası, millətlərarası münasibətlərin tənzimlənməsində çox böyük uğurlara nail olub və biz son 15 il ərzində bunu dünyaya nümayiş etdirmişik. Təkcə ona görə yox ki, özümüzü göstərək, ona görə ki, dünyada da müsbət meyillər üstünlük təşkil etsin. Əfsuslar olsun ki, son 15 il ərzində dünyada bu istiqamətdə çox təhlükəli proseslər cərəyan edib. İslamofobiya, ksenofobiya, ayrı-seçkilik artıq bəzi ölkələrdə dövlət siyasətinə çevrilir, başqa millətlərin, dinlərin nümayəndələrinə mənfi münasibət göstərilir. Ona görə biz çalışmışıq və bundan sonra da çalışacağıq ki, öz nümunəmizi göstərərək sübut edək ki, multikulturalizm yaşayır və yaşamalıdır. Eyni zamanda, biz öz milli mənəvi dəyərlərimizə sadiqik, buna bağlıyıq və təsadüfi deyil ki, 2016-cı və 2017-ci illər Azərbaycanda "Multikulturalizm" və "İslam Həmrəyliyi" illəri elan olunmuşdur.

Azərbaycan son 15 il ərzində beynəlxalq aləmdə böyük uğurlara imza atdı. Bizim dünyadakı mövqelərimiz möhkəmlənir, Azərbaycan çox müsbət beynəlxalq reputasiyaya malik olan bir ölkədir. Bizə qarşı dünya birliyi tərəfindən böyük rəğbət, dəstək var, biz bunu hiss edirik və əldə edilmiş nəticələr, qəbul edilmiş qərarlar bunu bir daha təsdiqləyir. Əlbəttə ki, bunun ən bariz nümunəsi bizim 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına seçilməyimiz olubdur. Bu, gənc müstəqil dövlət üçün çox böyük nailiyyətdir və bu, onu göstərir ki, dünya birliyinin mütləq əksəriyyəti bizi dəstəkləyir.

Biz son 15 il ərzində qonşu dövlətlərlə daha da sıx münasibətlər qura bildik. Deyə bilərəm ki, ikitərəfli münasibətlərimiz indi ən yüksək səviyyədədir, qonşu dövlətlərlə bizim heç bir problemimiz yoxdur, bütün məsələlər konstruktiv şəkildə öz həllini tapır və ikitərəfli əməkdaşlıq çoxtərəfli əməkdaşlığa şərait yaradır. Çoxtərəfli əməkdaşlıq da Azərbaycanın təşəbbüsü ilə baş verir. Bizim təşəbbüsümüzlə dörd qonşu ölkə ilə dörd çoxtərəfli əməkdaşlıq formatı yaradılıbdır və bu, işlək formatlardır. Biz bu üçtərəfli və dördtərəfli görüşlərdə çox önəmli məsələləri müzakirə edirik, həll edirik. Məsələlərin həlli bütün qonşu ölkələr, o cümlədən Azərbaycan üçün böyük fayda verir, eyni zamanda, qonşularla isti münasibətlərimiz regional sabitliyə, təhlükəsizliyə də öz müsbət təsirini göstərir.

(Davamı 2-ci səhifədə)

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ANDİÇMƏ MƏRASİMİNDƏ NİTQİ

(Əvvəli 1-ci səhifədə)

Biz son 15 il ərzində beynəlxalq təşkilatlar çərçivəsində çox fəal iştirak etmişik, bundan sonra da fəal iştirak edəcəyik. Beynəlxalq təşkilatlar Azərbaycanın mövqeyini dəstəkləyir, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı bizim ədalətli mövqeyimizi dəstəkləyir. Təkcə onu demək kifayətdir ki, son 15 il ərzində bir çox ən mötəbər beynəlxalq təşkilatlar münaqişə ilə bağlı bizim təklifimizi qəbul edərək çox önəmli qətnamələr qəbul etmişlər. Orada göstərilir ki, münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. BMT-nin Baş Assambleyası, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası Parlament Assambleyası, Avropa Parlamenti, İqtisadi Əməkdaşlıq Təşkilatı, GUAM və digər təşkilatlar münaqişə ilə bağlı bizim mövqeyimizi dəstəkləyən qətnamələr qəbul etmişdir. Ondan əvvəlki dövrdə isə BMT Təhlükəsizlik Şurası və ATƏT qətnamələr qəbul etmişdir ki, bu, münaqişənin həlli üçün hüquqi baza yaradır.

Biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində beynəlxalq təşkilatların dəstəyini tam qazana bilmişik, Ermənistanın işğalçı siyasətini ifşa etmişik. Nail ola bilmişik ki, Ermənistan bu gün bütün regional layihələrdən təcrid edilmiş vəziyyətdədir. BMT Təhlükəsizlik Şurasının qətnamələri münaqişənin həlli üçün əsas bazadır, hüquqi bazadır. Dünyaya bir daha sübut edə bilmişik ki, biz haqlıyıq. Baxmayaraq ki, bizə qarşı kampaniyalar aparılır, erməni lobbi təşkilatları bizə qarşı kampaniyalar aparır. Ancaq bu kampaniyalar beynəlxalq təşkilatların qərarlarına təsir edə bilmədi. Biz siyasi və diplomatik uğurlar qazana bildik. Qondarma "Dağlıq Qarabağ"ı heç kim tanımır və əminəm ki, tanımayacaq. Orada keçirilən qondarma "referendum"u bizim qonşu ölkələrimiz və beynəlxalq təşkilatlar pislədilər.

Dağlıq Qarabağ Azərbaycanın tarixi torpağıdır. Hüquqi baza var. Biz 15 il ərzində bu bazanı möhkəmləndirdik. Biz son 15 il ərzində münaqişə ilə bağlı həqiqətləri dünya birliyinə çatdıra bilmişik, kitablar yazıldı, xəritələr, qədim xəritələr ortaya qoyuldu, təqdimatlar, sərgilər keçirildi. Ondan çox ölkə Xocalı qətliamını soyqırımı kimi tanıdı. Bizim diplomatik və siyasi uğurlarımız öz nəticəsini verməkdədir.

Bu gün Ermənistan dalan ölkəyə çevrilib. Biz gizlətmirik ki, səylərimiz nəticəsində Ermənistanı bütün regional layihələrdən təcrid etmişik və bu siyasət öz nəticələrini verməkdədir. Biz bundan sonra da bu siyasəti davam etdirəcəyik və əminəm ki, istədiyimizə nail olacağıq. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız və yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bunun başqa yolu yoxdur. Azərbaycan heç vaxt imkan verməz ki, bizim ərazimizdə ikinci qondarma erməni dövləti yaradılsın.

Onu da biz dünya birliyinə, ictimaiyyətinə çatdırırıq ki, nəinki Dağlıq Qarabağ, indiki Ermənistan bizim tarixi torpaqlarımızdır. Təkcə sözlə yox, biz sübutlarla dünya birliyinə bunu çatdırırıq. Elmi əsərlər yazılır, arxivlər qaldırılır, tarixi kitablar yazılır. Bunu sübut edən kifayət qədər tarixi sənəd var. XIX əsrin əvvəllərində İrəvan xanlığının əhalisinin 80 faizini azərbaycanlılar təşkil edirdi. Biz bir neçə deportasiyaya məruz qalmışıq. Bütün bunları biz çatdırmalıyıq, çatdırırıq və bu, öz səmərəsini verməkdədir.

Bizim Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı prinsipial mövqeyimiz Azərbaycan xalqı tərəfindən dəstəklənir. Biz bu siyasətdən dönməyəcəyik, bundan sonrakı illərdə də işğalçını bütün işlərdən, regional işlərdən təcrid edəcəyik, onları ifşa edəcəyik. Gələcək illərdə isə bizim gücümüz daha da artacaq. Çünki bu gün reallaşan böyük təşəbbüslər, layihələr bizim gücümüzü daha da artıracaqdır.

Eyni zamanda, biz yaxşı bilirik və bunu tarix, yaxın tarix və bölgədə gedən proseslər göstərir ki, bir çox hallarda beynəlxalq hüquq normaları işləmir. Kim güclüdür, o da haqlıdır. Biz bunu dəfələrlə görmüşük, bu gün də görürük. Demək olar ki, son 15 il ərzində beynəlxalq davranış qaydaları dəyişdi, beynəlxalq hüquq normaları arxa plana keçdi. Güc amili daha önəm qazandı. Bu, reallıqdır. Biz real həyatda yaşayırıq və reallıqla hesablaşmalıyıq.

Bu reallıq bir də onu göstərir ki, bizim ordu quruculuğu ilə bağlı apardığımız siyasət yeganə düzgün siyasətdir. Bu siyasətin əvvəlində böyük işlər görüldü. Son 15 il ərzində ordu quruculuğu prosesi sürətlə getmişdir. Bəzi hallarda bizi tənqid edirdilər ki, siz nəyə görə bu məsələlərə bu qədər vəsait xərcləyirsiniz. Ancaq həyat göstərdi ki, biz düzgün siyasət aparmışıq. Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Təchizat, silah-sursat, texnika, döyüş qabiliyyəti baxımından ordumuz güclü ordular sırasındadır. Ordumuz üçün nə lazımdırsa, biz onu da təmin edirik. Ən müasir silahlar alınır və bundan sonra da alınacaq.

Ordumuzun gücünü düşmən də gördü. Aprel döyüşləri bizim şanlı tariximizdir, böyük qələbəmizdir. Azərbaycan Ordusu Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının torpaqlarının bir hissəsini işğalçılardan azad etdi, minlərlə hektar torpağa biz nəzarət edirik. Bu torpaqlara həyat qayıdır, bu torpaqlarda Azərbaycan bayrağı dalğalanır, insanlar qayıdır, yeni qəsəbə salınıbdır. Bizim hərbi qələbəmiz Azərbaycan xalqının gücünü, yenilməz ruhunu göstərir. Onu göstərir ki, Azərbaycan xalqı bu işğalla heç vaxt barışmayacaq. Bunu göstərir ki, biz öz torpaqlarımızı azad edəcəyik. Buna nail olmaq üçün daha da güclü olmalıyıq və olacağıq.

Cocuq Mərcanlı qəsəbəsi bizim dirçəliş rəmzimizə çevrilibdir. Cocuq Mərcanlıya qayıdan həyat hər bir Azərbaycan vətəndaşını ürəkdən sevindirir, onu qürurlandırır. Ermənilər, vandallar, Ermənistan rəhbərliyi bizim tarixi abidələrimizə də soyqırımı törədib, məscidlərimizi dağıdıb. Amma onlar başa düşmürlər ki, biz dağılmış məscidləri qəlbimizdə yaşadırıq. Biz dağılmış məscidləri qəlbimizdə ucaltmışıq. Torpaqlar işğaldan azad olunandan sonra vandallar tərəfindən dağıdılmış Şuşa məscidinin bənzərini biz Cocuq Mərcanlıya gətirdik, orada tikdik. Bu gün bu torpaqlarda bizim insanlarımız ibadət edə bilirlər. Bu, bir daha onu göstərir ki, biz heç vaxt işğalla barışmayacağıq.

Biz köçkünlərlə bağlı olan məsələləri də uğurla həll edirik. Yüzə yaxın qəsəbə salınıb, 280-290 min köçkün soydaşımız yeni evlərlə, mənzillərlə təmin edilibdir. Biz bundan sonra da onlara dəstək göstərəcəyik. Köçkünlərin məişət problemləri, onların məşğulluğu daim diqqət mərkəzindədir. Gələcəkdə də bu istiqamətdə addımlar atılacaqdır.

Ümumiyyətlə, deyə bilərəm ki, son 15 il ərzində biz sosial məsələlərin həllinə çox böyük diqqət göstərmişik. Bunu rəqəmlər də təsdiqləyir. Maaşlar təxminən 7 dəfə, pensiyalar 10 dəfədən çox artıb. Sosial infrastruktur yaradılır. 3100-dən çox məktəb tikilib və təmir edilib. 640-dan çox xəstəxana tikilib və təmir edilib. Bölgələrdə 43 Olimpiya İdman Mərkəzi yaradılıb. Yəni, sosial siyasət daim diqqət mərkəzindədir. Dəfələrlə bu məsələ ilə bağlı fikrimi bildirmişəm, bir daha demək istəyirəm ki, gələcək fəaliyyətimdə də Azərbaycan vətəndaşının maraqları, onun rifahı daim diqqət mərkəzində olacaqdır.

Nəzərə alsaq ki, növbəti illərdə biz çox ciddi islahatlar aparacağıq, islahatları dərinləşdirəcəyik, əminəm ki, vətəndaşlarımızın yaşayış səviyyəsi daha da yaxşılaşacaqdır. Yoxsulluğa qarşı mübarizədə Azərbaycan böyük uğurlara imza atıb. Demək olar ki, bu məsələlərlə məşğul olan bütün beynəlxalq təşkilatlar bunu nümunə kimi göstərirlər ki, yoxsulluq təxminən 50 faizdən 5,4 faizə düşübdür. İşsizliklə bağlı böyük işlər görülüb. İşsizlik Azərbaycanda 5 faiz səviyyəsindədir. Son 15 il ərzində əhalinin sayı 1,5 milyon nəfər artıb. Ancaq iş yerləri də təxminən o səviyyədə artıbdır. Mən bunu bir daha demək istəyirəm ki, gələcək fəaliyyətimizdə biz bu amili daim diqqətdə saxlayacağıq. Çünki bizdə mövcud olan müsbət demoqrafik dinamika tələb edir ki, iş yerlərinin yaradılması prosesi daim getsin. Əgər nəzərə alsaq ki, indi dünyada, o cümlədən Azərbaycanda yeni texnologiyalar tətbiq olunur və bu texnologiyalar bəzi hallarda insan əməyini aradan götürür, yeni texnoloji müəssisələrin yaradılması bizim planlarımızdadır. Biz yeni iş yerlərinin yaradılması ilə bağlı daha çevik və səmərəli siyasət aparmalıyıq.

Bu illər ərzində Azərbaycan intellektual məhsulun ixracatçısına çevrilibdir. "ASAN xidmət" artıq başqa ölkələrdə tətbiq olunur, bizim təcrübəmiz öyrənilir. Bu, ictimai xidmətlər sahəsində bir inqilab idi. Bu, sosial layihədir. Çünki bu layihə insanlara xidmət göstərir. On üç "ASAN xidmət" mərkəzimiz var. Bu ilin sonuna qədər onların sayı 15-ə, gələn ilin sonuna qədər isə 20-yə çatacaqdır. "ASAN xidmət" mərkəzlərində 20 milyondan çox müraciət qeydə alındı və bu qurumu bəyənmə əmsalı 100 faizə yaxındır.

Bu, bir daha bizim niyyətimizi, siyasətimizi göstərir. Korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə aparırıq, bundan sonra da aparılacaqdır. Bu istiqamətdə inzibati tədbirlər, cəza tədbirləri görüləcək və ən böyük səmərə verən sistem xarakterli tədbirlər, institusional islahatlar həyata keçiriləcəkdir. "ASAN xidmət" onların arasında xüsusi yer tutur. Azərbaycan vətəndaşları görürlər ki, biz tədricən bu qurumun funksiyalarını genişləndiririk.

Biz son 15 il ərzində iqtisadi islahatlar aparmışıq və iqtisadi məsələlərə xüsusi diqqət yetirmişik. Çünki mən dəfələrlə demişəm və həyat bunu göstərir, ancaq iqtisadiyyatı güclü olan ölkələr müstəqil siyasət apara bilərlər. Əgər sən kimdənsə asılısansa, - ya kreditdən asılısan, ya başqa dövlətdən asılısan, - heç vaxt, sözün əsl mənasında, müstəqil siyasət aparmaq iqtidarında olmayacaqsan. Ona görə biz çalışırdıq ki, iqtisadi müstəqilliyə çataq və buna da nail olduq. Biz indi heç bir kreditə möhtac deyilik, özümüz kreditlər veririk. Bizim dövlət borcumuz ümumi daxili məhsulumuzun 20 faizini təşkil edir. Mən qarşıya vəzifə qoymuşam və biz gələcək illərdə dövlət borcumuzu daha da aşağı səviyyəyə salmalıyıq. İqtisadiyyat son 15 il ərzində 3,2 dəfə artıbdır. Bu, çox böyük göstəricidir. Əlbəttə ki, bu göstəricinin tərkibində neft amili xüsusi yer tutur. Ancaq bununla bərabər, bizim qeyri-neft ixracımız 15 il ərzində dörd dəfədən çox artıbdır. Bu da onu göstərir ki, bizim islahatlarımız böyük səmərə verir.

Sənaye istehsalı 2,6 dəfə artmışdır. Valyuta ehtiyatlarımız 24 dəfə artmışdır, bu gün 44 milyard dollara bərabərdir. Ölkəmizə 230 milyard dollardan çox sərmayə qoyulub. Ölkəmizdə çox gözəl investisiya iqlimi vardır. Xarici və yerli sərmayə ölkəmizə bundan sonra da qoyulacaqdır. Davos Ümumdünya İqtisadi Forumu Azərbaycanı rəqabətqabiliyyətliliyinə görə 35-ci yerə layiq görübdür. İnkişafda olan ölkələr arasında inklüziv inkişaf indeksinə görə biz üçüncü yerdəyik. Yəni, bu göstəricilər özlüyündə hər şeyi açıq-aydın bildirir, onu göstərir ki, iqtisadi sahədə əldə edilmiş uğurlar, nailiyyətlər tarixi nailiyyətlərdir.

Bu gün də Azərbaycan iqtisadiyyatı inkişaf edir. Biz dünyada baş vermiş böhranlar zamanı da bu böhranlardan ən az itkilərlə çıxa bilmişik. Artıq bu böhranlar arxada qalıb və iqtisadi sabitlik, maliyyə sabitliyi, əlbəttə ki, həm investisiya iqliminə müsbət şərait yaradır, həm də biznes mühitini daha da yaxşılaşdırır. Gələcək illərdə biznes mühitinin yaxşılaşdırılması istiqamətində əlavə addımlar atılacaq, iqtisadi islahatlar dərinləşəcək. İqtisadi sahədə tam şəffaflıq təmin edilməlidir, bütün xoşagəlməz hallara son qoyulmalıdır. Bütün iqtisadi qurumlar dünyanın inkişaf etmiş ölkələrində olan müsbət təcrübəni tətbiq etməlidirlər. Belə göstərişlər verilibdir. Əminəm ki, Azərbaycan vətəndaşları, sahibkarlar yaxın gələcəkdə bizim islahatlarımızın müsbət təsirini görəcəklər.

Sahibkarlığın inkişafı sürətlə getmişdir. Bu illər ərzində sahibkarlara 2 milyard manatdan çox güzəştli şərtlərlə kreditlər verilmişdir. Bu kreditlər hesabına və sahibkarların öz vəsaiti hesabına yüzlərlə, bəlkə də minlərlə yeni müəssisə yaradılmışdır və qeyri-neft sektorunun inkişafı təmin edilmişdir. Növbəti illər ərzində, qeyd etdiyim kimi, iqtisadi sahədə islahatlar təmin ediləcək, dərinləşəcək ki, Azərbaycan iqtisadiyyatı dayanıqlı şəkildə inkişaf etsin və biz neft-qaz amilindən asılılığı azaldaq.

Bu illər ərzində biz yeni texnologiyalara böyük diqqət vermişik. Azərbaycan dünyanın məhdud sayda üzvü olan kosmik klubuna daxil oldu. Bizim indi iki peykimiz var və üçüncü peykin orbitə buraxılması nəzərdə tutulur. Azərbaycan bu sahədə də liderlik nümayiş etdirir. Bu, onu göstərir ki, biz gələcəyə baxırıq və gələcək də elmi-texnoloji inkişafla bağlıdır. Məhz buna görə biz təhsilə, elmə diqqət veririk, növbəti illərdə daha da böyük diqqət göstərməliyik. Çünki hər bir dövlətin uğurlu inkişafı texnoloji təminata əsaslanır. Biz ən müasir texnologiyaları Azərbaycanda tətbiq etməliyik. Buna nail olmaq üçün bizdə hazırlıqlı kadr potensialı olmalıdır, bu istiqamətdə bundan sonrakı illərdə də işlər görüləcəkdir.

Əlbəttə ki, bizim iqtisadiyyatımızın əsas hissəsini neft-qaz sektoru təşkil edir. Təbii ki, son 15 il ərzində bu sahəyə xüsusi diqqət göstərilirdi və bundan sonra da göstəriləcək. Bu illər ərzində biz doğrudan da tarixi nailiyyətlərə nail ola bilmişik. Ulu öndər Heydər Əliyevin öz əlləri ilə təməlini qoyduğu Bakı-Tbilisi-Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verildi və beləliklə, biz böyük gəlirlər əldə etməyə başlamışdıq. Ondan bir il sonra Bakı-Tbilisi-Ərzurum qaz kəməri Azərbaycanı qaz ixrac edən ölkəyə çevirmişdir. Hazırda biz Cənub Qaz Dəhlizinin icrası ilə məşğuluq. Bu layihə bizim təşəbbüsümüzlə həyata keçirilir. 2012-ci ildə bu layihəyə start verildi. Ondan əvvəlki illər isə demək olar ki, nəticəsiz keçmişdir. Çünki Azərbaycan qazını böyük həcmlərlə Avropa bazarlarına çıxarmaq üçün bir neçə il ərzində müzakirələr gedirdi, amma heç bir nəticə yox idi. Biz bunu görəndə artıq bildik ki, ancaq özümüzə güvənməliyik və tarixi qərarlar qəbul edildi. Çox çətin layihəni uğurla icra edirik. Bu, həm iqtisadi, həm texniki cəhətdən maliyyə tutumlu layihədir. Cənub Qaz Dəhlizinə qoyulan sərmayə 40 milyard dollara bərabərdir. Bu vəsaitin böyük hissəsi xarici tərəfdaşlar, banklar tərəfindən qoyulur. Ona görə xüsusilə bu da dünyada mövcud olan iqtisadi böhrana təsadüf etdi və bu vəsaiti ölkəmizə cəlb etmək o qədər də asan məsələ deyildi. Biz, əlbəttə, diplomatik, siyasi və iqtisadi yollarla buna nail ola bilmişik. "Cənub Qaz Dəhlizi" layihələrinin üçü bu il istifadəyə veriləcəkdir – "Şahdəniz-2", "Cənubi Qafqaz Kəməri" və TANAP. Biz artıq Avropanın, Avrasiyanın enerji xəritəsini dəyişdirmişik. Bundan sonrakı illər ərzində Azərbaycan Avrasiyada çox önəmli enerji resurslarını dünya bazarlarına çıxaran ölkə kimi fəaliyyət göstərəcək. Əlbəttə, bizə əlavə gəlirlər gələcək ki, bu gəlirləri də biz ölkəmizin inkişafına yönəldəcəyik. Biz bu illər ərzində "Azəri-Çıraq-Günəşli" yatağının gələcək işlənilməsi ilə bağlı önəmli addımlar atmışıq, yeni kontrakt imzalanıb. Kontraktın müddəti 2050-ci ilə qədər uzadılıb və biz öz payımızı artıra bilmişik. Eyni zamanda, 3,6 milyard dollar bonus almışıq və onun birinci hissəsi artıq bu il xəzinəyə daxil olub. Növbəti illərdə biz neft-qaz sektorunda digər perspektiv strukturlar ətrafında tərəfdaşlarla işləyəcəyik. Demək olar ki, neft-qaz sektorunda Azərbaycan istədiyinə artıq nail olubdur və bir-iki ildən sonra Cənub Qaz Dəhlizi tam istifadəyə veriləcəkdir.

Biz bu illər ərzində ölkə daxilində enerji təminatını yaxşılaşdıra bilmişik. Böyük infrastruktur layihələri icra edilib. Son 15 il ərzində 30-dan çox elektrik stansiyası tikilib. Onların generasiya gücü 3900 meqavata bərabərdir. Müqayisə üçün deyə bilərəm ki, bizim indi ümumi generasiya gücümüz təqribən 6,5 min meqavata bərabərdir. Onun 3,9 min meqavatını biz 15 il ərzində yarada bilmişik. Azərbaycan elektrik enerjisini idxal edən ölkədən ixrac edən ölkəyə çevrilmişdir.

Qazlaşdırma bu ilin sonuna qədər Azərbaycanda 95 faizə çatacaqdır. Hesab edirəm ki, bu, dünya miqyasında ən yüksək göstəricilərdən biridir və biz bundan sonra da bu işlərlə məşğul olacağıq.

Bu ilin sonuna qədər, - əgər 2004-cü ilin əvvəlindən hesablasaq, - ölkəmizdə 15 min kilometr yeni yol çəkilişi təmin edilmiş olacaqdır. Bu proses bundan sonrakı illərdə də davam edəcək. Bütün kənd yolları ilə bağlı təkliflər artıq bizə daxil olub. İmkan olduqca biz bütün kənd yollarını yenidən quracağıq. Bu istiqamətdə artıq böyük işlər görülübdür.

2004-cü ildə Bakının su təchizatı ilə bağlı problemləri çox ciddi idi. O vaxt Bakı sakinlərinin 29 faizi davamlı təmiz içməli su ilə təmin olunurdu. Bu gün bu rəqəm 81 faizə çatıbdır. Ölkə üzrə isə 2004-cü ildə təqribən 20 faiz əhali içməli su ilə təmin edilirdi, hazırda bu rəqəm 67 faizə çatıbdır. Bundan sonrakı illərdə bu günə qədər görə bilmədiyimiz işləri biz başa çatdıracağıq. Bütün şəhərlərdə, bütün kəndlərdə insanlar təmiz içməli su ilə təmin olunmalıdırlar. Bizim proqramlarımızda bu var. Bu da infrastruktur layihələri arasında xüsusi yer tutan sahədir.

Kənd təsərrüfatının inkişafı üçün böyük meliorasiya tədbirləri görülübdür, dörd böyük su anbarı tikilib və son bir neçə il ərzində biz hər il 100 mindən çox hektara yeni su mənbəyi gətiririk. Əminəm ki, kənd təsərrüfatının inkişafına bunun çox böyük təsiri olacaqdır.

Biz son illərdə ölkə daxilində nəqliyyat infrastrukturu ilə çox ciddi məşğul olmuşuq. Demək olar ki, nəqliyyat infrastrukturuna çox böyük vəsait qoyulubdur. Biz yeddi aeroport tikmişik, onlardan altısı beynəlxalq statusa malikdir. O aeroportlar indi işləyir, xaricdən gələn turistlərin sayır artır. Ələtdə Xəzər dənizində ən böyük yeni ticarət limanı tikilir, yaxın gələcəkdə istifadəyə veriləcəkdir. Dəmir yolu infrastrukturu yeniləşir. Azərbaycan Xəzər dənizində ən böyük donanmaya malikdir. Burada da biz liderliyi möhkəmləndiririk. Gəmiqayırma zavodunun tikintisi artıq xaricdən gəmilərin alınmasına ehtiyac qalmadığını göstərir.

Bir sözlə, nəqliyyat infrastrukturunun yeniləşməsi, yaradılması, əlbəttə ki, daxili tələbat idi. Eyni zamanda, biz qonşularla əməkdaşlıq edərək regional infrastrukturu da yaratmışıq. Keçən ilin oktyabrında Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı növbəti tarixi nailiyyətimizdir. Qonşularla birlikdə bu tarixi yolu biz istifadəyə verdik və indi Azərbaycan ərazisindən yüklərin daşınması gündən-günə artmaqdadır. Bununla paralel olaraq, hazırda biz Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması ilə məşğuluq və Azərbaycan ərazisində bütün işləri tamamladıq. İndi biz, ümumiyyətlə, Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması ilə məşğuluq. Əminəm ki, qonşu ölkələrlə əməkdaşlıq edərək bu yolun çatışmayan hissəsi də yaxın gələcəkdə tikilib istifadəyə veriləcək. Beləliklə, açıq dənizlərə çıxışı olmayan ölkə olan Azərbaycan Avrasiyanın nəqliyyat mərkəzlərindən birinə çevrilir. Bu, real işlərin nəticələridir.

Bizim coğrafi yerləşməyimiz bir tərəfdən əlverişlidir, digər tərəfdən əlverişsizdir. Biz Avropa ilə Asiya arasında yerləşirik, ancaq, eyni zamanda, bizim açıq dənizlərə çıxışımız yoxdur. Əgər olsa idi, onda heç neft və qaz kəmərlərini tikməyə ehtiyac qalmazdı. Ona görə, belə qapalı şəraitdə Avrasiyanın nəqliyyat mərkəzlərindən birinə çevrilməyimiz tarixi nailiyyətimizdir.

Qeyd etməliyəm ki, biz digər sahələrdə də böyük uğurlar qazanmışıq. Bir çıxışda onların hamısını sadalamaq mümkün deyil. Təkcə onu demək istəyirəm ki, 2004-cü ildə Azərbaycana xaricdən bir milyon qonaq gəlmişdirsə, bu il gələcək qonaqların sayı üç milyona çatacaqdır. Biz ölkəmizi dünyada tanıtdıra bilmişik. Beynəlxalq tədbirlərin keçirilməsi, Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, Formula 1 yarışları, siyasi, humanitar tədbirlər Azərbaycanı dünyaya təqdim etdi. Bununla paralel olaraq, xalqımızın qonaqpərvərliyi, gözəl iqlim, təhlükəsizlik, gözəl infrastruktur, şərait, tarixi abidələrimiz Azərbaycanı sürətlə inkişaf edən böyük turizm mərkəzinə çevirir. Əlbəttə, bu, ölkəmizə valyuta gətirir, bu, ölkəmizi daha da gücləndirir və bu sahədə minlərlə iş yeri yaradılır və yaradılacaqdır.

Biz böyük idman uğurları ilə fəxr edə bilərik. Bizim idmançılarımız son 15 il ərzində Olimpiya Oyunlarında, dünya, Avropa çempionatlarında böyük qələbələr qazanmışlar. Avropa Oyunlarında biz ikinci yerə layiq görüldük, İslam Həmrəyliyi Oyunlarında isə bütün müsəlman ölkələri arasında birinci yerə nail olduq. Biz Rio Olimpiya Oyunlarında medalların sayına görə 14-cü yerdəyik. Tarixi qələbələrdir. Hara baxsaq, hansı sahəyə baxsaq biz inkişaf, nəticə və uğur görürük. Nəyə görə? Çünki bizim siyasətimiz xalq tərəfindən dəstəklənir. Bir daha qayıdıram çıxışımın əvvəlinə, xalq-iqtidar birliyi bütün bu uğurları mümkün edir. Biz regional inkişafla çox ciddi məşğul olmuşuq. Üç regional inkişaf proqramı qəbul edilibdir. Üçüncüsü bu il başa çatır. Regionların siması dəyişilib, şəhərlər abadlaşıb, gözəlləşib. Bakı dünyanın ən gözəl şəhərlərindən birinə çevrilibdir. Bakı şəhəri bizim qürur mənbəyimizdir.

Yəni, son 15 il ərzində kifayət qədər uğurlar, nailiyyətlər var. Ancaq biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik. Biz gələcəyə baxmalıyıq və baxırıq. Növbəti illərdə görüləcək işlər haqqında bizim çox aydın təsəvvürümüz, planlarımız, proqramlarımız var. Biz qeyd etdiyim sahələr üzrə səylərimizi davam etdirəcəyik, Azərbaycanı daha da qüdrətli ölkəyə çevirəcəyik. Hər bir sahə üzrə bizim konkret proqramlarımız, planlarımız var. Həm beynəlxalq məsələlərlə, həm bölgələrimizin möhkəmləndirilməsi, siyasi-iqtisadi islahatların dərinləşməsi, sosial siyasət, ordu quruculuğu ilə bağlı bizim konkret proqramlarımız var. Güclü siyasi iradə, böyük maliyyə resurslarımız var. Biz bu maliyyə resurslarını öz əlimizlə yaratmışıq və biz indi öz hesabımıza yaşayırıq. Xalq-iqtidar birliyi var. Ona görə mən əminəm ki, bütün Azərbaycan xalqı və biz hamımız gələcəyə çox böyük nikbinliklə baxırıq. Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar.

Çıxışımın sonunda bir məsələni də qeyd etməliyəm. Bütün bu uğurlar ancaq müstəqillik dövründə mümkün olmuşdur. Azərbaycan xalqı bir daha görür ki, müstəqilliyimizin üstünlükləri nədən ibarətdir. Bizim taleyimiz öz əlimizdədir, biz öz taleyimizin sahibiyik. Biz ancaq müstəqillik dövründə belə böyük uğurlara nail ola bilərdik. Bu gün müstəqillik bizim üçün ən böyük sərvətdir, ən böyük nemətdir, ən böyük xoşbəxtlikdir. Biz bundan sonra da müstəqillik və qələbələr yolu ilə gedəcəyik.

Eşq olsun Azərbaycan xalqına!

Yaşasın Azərbaycan!

RUSİYA DƏNİZ GƏMİÇİLİYİ REGİSTRİNİN BAŞ DİREKTORU: "AZƏRBAYCANIN 160 İLLİK TARİXƏ MALİK GƏMİÇİLİK ŞİRKƏTİNDƏ MÜASİR İDARƏETMƏ SİSTEMİNİN TƏTBİQİNDƏ ƏLDƏ OLUNAN UĞURLAR TƏQDİRƏLAYİQDİR"

Aprelin 18-də "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-də tanınmış təsnifat cəmiyyətlərindən olan Rusiya Dəniz Gəmiçiliyi Registrinin baş direktoru Konstantin Palnikovla görüş keçirilib. Görüşdə "AXDG" QSC və RDGR arasında qarşılıqlı əməkdaşlığın hazırkı vəziyyəti müzakirə olunub.

"AXDG" QSC-nin sədri Rauf Vəliyev son 4 ildə rəhbərlik etdiyi qurumda görülən işlər barədə qonaqlara məlumat verib. Bildirib ki, strateji hədəflərə çatmaq üçün donanmadakı gəmilərin texniki vəziyyətinin yaxşı olması əsas şərtlərdən biridir. Bu gün donanmamızın həm yeniləndiyini, həm də istismarda olan gəmilərin vaxtlı-vaxtında saz vəziyyətə gətirildiyini deyən Rauf Vəliyev vaxtı ilə istismardan çıxarılan, daha sonra isə Gəmiçiliyin öz imkanları hesabına modernləşdirilərək istismara qaytarılan "Dağıstan" gəmi-bərəsi barədə də qonaqları məlumatlandırıb.

Görüş zamanı bildirilib ki, "AXDG" QSC 2013-cü ildən bəri maliyyə və korporativ idarəetmə sahəsində dünyanın nüfuzlu şirkətlərinin auditindən müsbət rəylər almaqdadır.

Rusiya Dəniz Gəmiçiliyi Registrinin baş direktoru Konstantin Palnikov deyib ki, Azərbaycanın 160 illik tarixə malik Gəmiçilik şirkətində müasir idarəetmə sisteminin tətbiqində əldə olunan uğurlar təqdirəlayiqdir. Onun sözlərinə görə, təmsil etdiyi təsnifat cəmiyyəti "AXDG" QSC ilə uğurlu əməkdaşlıqdan məmnundur.

RDGR haqqında məlumat verən qonaq qeyd edib ki, təsnifat cəmiyyətinin Rusiyada və dünyanın əksər bölgələrində, o cümlədən Azərbaycanda nümayəndəliyi fəaliyyət göstərir. Bu da dənizçilik sahəsində çoxşaxəli xidmətlərin operativ və etibarlı formada göstərilməsinə imkan verir.

Görüşdə əməkdaşlığın perspektivləri müzakirə olunub.

Qeyd edək ki, Rusiya Dəniz Gəmiçiliyi Registri 1913-cü ildən fəaliyyət göstərir və 1969-cu ildən Təsnifat Cəmiyyətləri Beynəlxalq Assosiasiyasının üzvüdür.

"KASPİSKAYA ENERGİYA" ŞİRKƏTLƏR QRUPUNUN NÜMAYƏNDƏLƏRİ İLƏ MÜMKÜN ƏMƏKDAŞLIQ İMKANLARI BARƏDƏ FİKİR MÜBADİLƏSİ APARILIB

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin rəhbər heyəti ilə Rusiya Federasiyasının "Kaspiskaya Energiya" şirkətlər qrupunun nümayəndələri arasında işgüzar görüş keçirilib.

Görüş zamanı qonaqlara "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC haqqında ətraflı məlumat verilib. Bildirilib ki, donanmasının tərkibinə və göstərdiyi xidmətlərin müxtəlifliyinə görə AXDG dünyanın ən unikal gəmiçilik şirkətlərindən biridir.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev və rusiyalı qonaqlar mümkün əməkdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparıblar. İşgüzar əlaqələrin perspektivləri müzakirə olunub.

Görüş çərçivəsində "Kaspiskaya Energiya" şirkətlər qrupu tərəfindən tikilən gəmi layihələrinin təqdimatı da olub.

TÜRKMƏNİSTAN RESPUBLİKASININ ÖLKƏMİZDƏKİ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ GƏMİÇİLİKDƏ OLUB

Aprelin 6-da Türkmənistan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Mekan İşanquliyevlə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-də görüş keçirilib.

Görüşdə iki ölkə arasında əməkdaşlığın bütün sahələrdə, o cümlədən dənizçilik sahəsində artan dinamika üzrə inkişaf etdiyi qeyd edilib.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev hazırda Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunda təmirə dayanan Türkmənistana məxsus "Berkarar" gəmisində işin gedişi haqqında səfirə ətraflı məlumat verib. Qeyd edib ki, gəmiyə lazımi texniki dəstək göstərilir və təmir yaxın vaxtlarda uğurla başa çatacaq.

Görüşdə tranzit yükdaşımalar sahəsində mümkün əməkdaşlıq imkanları ətrafında da geniş fikir mübadiləsi aparılıb.

Bundan başqa, "AXDG" QSC-nin sədri Rauf Vəliyev Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun uğurlu fəaliyyəti və əhəmiyyəti haqqında da qonağa məlumat verib. Bildirib ki, "Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyası Hüquqi Şəxslər Birliyinə daxil olan tərəflərin vahid komanda kimi fəaliyyəti artıq bəhrəsini verir.

"Berkarar" gəmisinin təmirində göstərdiyi köməkliyə görə "AXDG" QSC-nin rəhbərliyinə minnətdarlıq edən səfir Mekan İşanquliyev ölkəsinin Azərbaycanla gəmiçilik sahəsində əməkdaşlıqda hər zaman maraqlı olduğunu diqqətə çatdırıb.

Bununla belə, görüşdə Gəmiçiliyin Xəzər Dəniz Neft Donanmasına aid gəmilərinin xidmətlərindən istifadə, Azərbaycan Dövlət Dəniz Akademiyasında və onun nəzdində fəaliyyət göstərən dənizçilik sahəsində regionun ən güclü Təlim Tədris Mərkəzində Türkmənistan vətəndaşlarının təhsil və təlim keçməsi məsələləri də müzakirə olunub.

Səmimi mühitdə davam edən görüşdə xüsusilə vurğulanıb ki, iki ölkəni təkcə Xəzər dənizi deyil, eyni zamanda xalqlarının eyni köklərə bağlılığı birləşdirir.

TƏFTİŞ OLUNAN GƏMİLƏR ÜZRƏ HESABATLAR TƏQDİM OLUNUB

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Xəzər Dəniz Neft Donanması üzrə 2018-ci ilin birinci rübündə təftiş olunan gəmilərlə bağlı hazırlanan hesabatlar təqdim olunub.

"AXDG" QSC rəhbərliyinin tapşırığına əsasən gəmilərdə yoxlamanı müstəqil inspektorlar həyata keçiriblər. Yoxlamaların nəticələrini təqdim edən Bəylər Ağayev və Rəşad Şəkərov gəmilərdə aşkarladıqları nöqsanlar haqqında məlumat veriblər. Bildirilib ki, təftiş zamanı aşkar olunan nöqsanlarla bağlı dənizçilər yerindəcə məlumatlandırılıb, onların aradan qaldırılması üçün zəruri tədbirlər görülüb. Gəmilərdə heyətin bilik və bacarıqlarının artırılması istiqamətində müəyyən təlimlər keçirilib.

Təqdimatda iştirak edən "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev müstəqil inspektorların işini müsbət qiymətləndirib. Sədr qəza hadisələrinə reaksiya verilməsində müsbət dəyişikliklərin olduğunu desə də, dənizçilərdən daha yaxşı nəticələr gözlədiyini bildirib. Gəmiçilik rəhbəri gəmi heyətlərinin hazırlıq səviyyələrinin artırılması, təhlükəsiz üzmə tələblərinə əməl olunması, dənizçilərin gəmidəki qəza-xilasetmə avadanlıqlarından istifadəetmə vərdişlərinin təkmilləşdirilməsi üçün tapşırıqlarını verib. Eyni zamanda gəmidə nizam-intizam və səliqə-səhman məsələlərinə diqqət yetirilməsinin vacib olduğunu qeyd edib.

Bundan başqa, Rauf Vəliyev bildirib ki, təcrübəli kadrlar gənc dənizçilərin yetişdirilməsində, onların peşəkar vərdişlərə yiyələnməsində bilik və bacarıqlarını əsirgəməməlidirlər. Bu, donanmada peşəkar kadrların artmasına səbəb olacaq.

Hesabatların təqdimatından sonra aşkar olunan nöqsanlar ətrafında dənizçilərlə müzakirələr aparılıb.

Qeyd edək ki, Gəmiçilikdə işin keyfiyyətini daha da artırmaq üçün müstəqil yoxlamalar müntəzəm keçirilir.

GƏMİÇİLİYİN RƏHBƏRLİYİ XƏZƏR DƏNİZ NEFT DONANMASININ DƏNİZÇİLƏRİ İLƏ GÖRÜŞÜB

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin rəhbər heyəti Xəzər Dəniz Neft Donanmasının dənizçiləri ilə görüşüb.

Onların qayğıları ilə maraqlanmaq, suallarına cavab vermək məqsədi ilə baş tutan görüş birbaşa Gəmiçiliyin rəhbəri Rauf Vəliyevin təşəbbüsü ilə reallaşıb.

Səmimi şəraitdə keçən görüşdə "AXDG" QSC-nin sədri dənizçilərin çoxsaylı suallarını cavablandırıb. Bildirib ki, Gəmiçiliyin rəhbərliyi, əməkdaşların sosial rifahının yaxşılaşması və onların təcrübəli dənizçilər kimi inkişaf etməsində hər zaman maraqlıdır. Onun sözlərinə görə, bu məqsədlərə tam nail olmaq üçün hazırda bir sıra layihələr icra olunur və proses növbəti dövrlərdə də davam etdiriləcək.

Rauf Vəliyev "AXDG" QSC yarananından bəri qarşıya qoyulan strateji hədəflərin reallaşmasından da danışıb.

"Təbii ki, siz dənizçilərin əzmkarlığı sayəsində bir çox uğura imza atdıq. Amma qarşıda xeyli görüləcək işlərimiz var. Hazırkı əsas hədəflərimizdən biri peşəkar kadr hazırlığıdır. Bunun üçün təcrübəli dənizçilər gəmilərə gələn gənclərdən köməkliklərini əsirgəməməlidirlər. Nəzərə almaq lazımdır ki, yenilənən və müasirləşən donanmalarımızda savadlı və gənc dənizçilərin olması daha böyük uğurlara yol açа bilər,"- deyə sədr qeyd edib.

Bundan başqa, Rauf Vəliyev bu il Gəmiçiliyin 160 illik yubileyinin qeyd olunacağını da bildirib. Əlavə edib ki, yubiley ilində dənizçilərin sevincinə səbəb olacaq bir sıra maraqlı layihələr həyata keçiriləcək.

Müzakirələr zamanı "AXDG" QSC-nin üzən heyətinin aprelin 11-də ölkəmizdə baş tutan Prezident seçkilərində yüz faizlik iştirakı da qürurla xatırlanıb. Bildirilib ki, cənab İlham Əliyevin yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsini dənizçilər də bayram əhval-ruhiyyəsi ilə qarşılayıblar. Onun ölkəmizə rəhbərliyi dövründə dənizçilərə göstərilən diqqət və qayğının daha da artdığı, Gəmiçilik donanmasının xeyli yeniləndiyi vurğulanıb. Bunun nəticəsidir ki, indi gəmilərimiz təkcə Xəzər dənizində deyil, xarici sularda da Azərbaycan bayrağını dalğalandırır.

Görüşdə dənizçilər göstərilən diqqət və qayğıya görə təşəkkürlərini bildiriblər.

Qeyd olunub ki, bu formatda görüşlər mütəmadi keçiriləcək.

PORTRET CİZGİLƏRİ

DİNLƏMƏYİ BACARAN İNSANIN DƏNİZLƏ BAĞLI TALEYİ

Uzun illər dənizçilik sahəsində uğurlu, əvəzsiz işlər görmüş, dünyanın yarısından çoxunu gəzmiş, ensiklopedik yaddaşa malik, Azərbaycan Dövlət Dəniz Akademiyasının baş müəllimi Mahir Tahirovun vasitəsilə, çox dəyərli bir insanla tanış oldum. Sifətində nur olan, müsahibinə diqqətlə qulaq asan, gülümsər çöhrəli, sakit təbiətli bu insan ilk baxışdan xoşuma gəldi. Və öz-özümə fikirləşdim: "Əsl diplomat davranışı və xasiyyəti var Hacı müəllimdə".

Qısa arayış: Hacı Mirzə oğlu Babayev 1948-ci ilin yanvar ayının 7-də Bakı şəhərinin Səbail rayonunda ziyalı ailəsində anadan olub. Hacı gözlərini açanda dəniz görüb. Bu dənizin kükrəməsi, tufanlar qoparması, uğultusu balaca Hacını qorxutsa da, amma bu möcüzə elə uşaq yaşlarından onun xoşuna gəlib. Saatlarla dənizin sahilində dayanıb, onun ucu-bucağı görünməyən ənginliklərinə maraqla tamaşa edib balaca Hacı. Evlərinin də dənizin sahilində olması, yaz, yay və payız aylarında tez-tez dəniz sularına baş vurması bu vurğunluğu bir az da artırıb. Bəlkə də elə məhz bu istək Hacı Babayevi 1966-cı ildə 39 nömrəli tam orta məktəbi bitirəndən sonra "Xəzərneftdonanma" İdarəsinin gəmilərində motorçu şagirdi kimi əmək fəaliyyətinə başlaması ilə onun dənizlə bağlı taleyinin ilk sətirlərini yazıb. O, bu sahədə böyük mexanik vəzifəsinə qədər yüksəlib. Hacı Babayev 1974-cü ildə istehsalatdan ayrılmadan Odessa Ali Dəniz Mühəndisləri Məktəbini mühəndis-gəmi mexaniki ixtisası üzrə bitirib.

1978-ci ildə Bakı Dəniz Yolları Məktəbinin "Volodya Dubinin" tədris gəmisində gəmi kapitanının I köməkçisi vəzifəsinə təyin olunub. Yüksək natiqlik qabiliyyəti olan Hacı Babayev 1980-1989-cu illərdə Xəzər Dəniz Gəmiçiliyinin partiya komitəsində təlimatçı vəzifəsində çalışıb. 1989-cu ildən Qafur Məmmədov adına Bakı Dəniz Yolları Məktəbində pedaqoji fəaliyyətə başlayıb. Elə həmin vaxtdan da bu sahədə əvvəlcə siyasi və sonra təlim-tərbiyə işləri üzrə rəis müavini kimi fəaliyyətini davam etdirib. 1996-cı ildə Azərbaycan Dövlət Dəniz Akademiyası yaranan vaxtdan isə akademiyanın orta ixtisas təhsili şöbəsinin rəis müavini vəzifəsinə təyin olunub. 1997-ci ildən Hacı Babayev "Gəmi energetik qurğuları" kafedrasında assistent, 2003-cü ildən isə həmin kafedranın baş müəllimi vəzifəsində işləyib. 2016-cı ildən isə dosent vəzifəsində çalışır. O, texnika üzrə fəlsəfə doktorudur. Gəmiçilik texnikası üzrə Azərbaycanda ilk elmi iş müdafiə edən mütəxəssisdir. O, 22 çap olunmuş elmi əsərin və bir monoqrafiyanın müəllifidir. Gəmilərdə çalışan gəmi mexanikləri üçün təşkil olunmuş ixtisasartırma və ixtisastəkmilləşdirmə kurslarında dərs deyir.

Hacı Babayevlə bağlı mən "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti Azərbaycan Dövlət Dəniz Akademiyasının tədris işləri üzrə prorektoru, texnika elmləri doktoru Zahid Şərifovla söhbət etdim. O, söhbət əsnasında belə dedi:

– Hacı müəllimlə bizim tanışlığımız 1996-cı ildən, yəni Akademiya yarandığı vaxtdan başlayıb. Bütün bu illərdə də Hacı müəllim rəhbərliyə dəstək olub. Bu illərdə də bizim fikirlərimiz üst-üstə düşdüyünə görə bir-birimizi yarım sözdən başa düşmüşük. Yəqin ki, onunla bizim xasiyyətimizin yaxınlığına görə dostluğumuz da tutur. Hacı müəllim həqiqətən böyük bir insandır. O, tələbələr tərəfindən də böyük hörmət qazanıb. Siz əgər onlarla görüşsəniz, hamısı bir ağızdan deyəcək: "Hacı müəllim ədalət prinsipi ilə işləyən müəllimdir". Açığı bunu hər bir müəllim bacarmır. Ona görə də Akademiyada hamı deyir ki, Hacı müəllim ədalətli bir insandır. Bizim Cəmiyyətin hər il keçirdiyi müxtəlif tədbirlər olur. Onlardan da biri və mənə görə ən əsası "İlin ən yaxşı matrosu, ən yaxşı kapitanı, ən yaxşı müəllimi" nominasiyasıdır. Hacı müəllim də tədris sahəsində ən böyük töhvə verən bir insan kimi bu il "İlin ən yaxşı müəllimi" adını alıb. O, həm Səbail rayonu, həm də Akademiyada bütün ictimai işlərdə çox yaxından iştirak edir. Bu insanda "yoruldum, bacarmıram" sözləri yoxdur. O, gözəl alim, gözəl pedaqoqdur".

Azərbaycan Dövlət Dəniz Akademiyasında vəzifəcə ikinci insandan belə sözləri eşitmək mənim üçün də xoş oldu ki, qəhrəmanım haqqında belə yaxşı sözlər deyilir.

Hacı Babayev pedaqoji fəaliyyəti ilə yanaşı, hələ sovetlərin vaxtından dəfələrlə Səbail rayonunun deputatı seçilib. Müstəqillik dövrümüzdə isə dördüncü dəfədir ki, rayonun çoxminli sakinləri tərəfindən bələdiyyə üzvü seçilib. O, həm də rayonda Böyük Vətən müharibəsi və Əmək Veteranları Şurası rəyasət heyətinin üzvüdür. Bir veteran kimi, burada da rayonun bütün ictimai həyatında əlindən gələni edir. Hacı Babayev çox yaxşı valideyndir. Azərbaycan xalqı üçün iki ziyalı, vətənpərvər, dövlətə və dövlətçiliyə sadiq oğul böyüdüb. Onun böyük oğlu Ramin Azərbaycan Dövlət İdman Akademiyasını bitirdikdən sonra Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin əməkdaşıdır. Kiçik oğlu Mirzə Azərbaycan Dövlət Dəniz Akademiyasını bitirdikdən sonra "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin gəmilərində kapitan köməkçisi vəzifəsində işləyir.

Hacı müəllimlə biz onun ömrünün 70 ilini birlikdə vərəqlədik. Söhbətimiz əsnasında o, belə maraqlı fikirlər dedi:

- Hacı adı mənim üçün müqəddəs addır. Çalışıram ki, əməlimlə də Hacı olum.

- Siz nə vaxtdan dənizlə bağlısınız?

- Lap uşaq yaşlarımdan. Amma artıq 50 ildir ki, bir işçi kimi dənizin qoynuna ayaq basmışam. Mənə elə gəlir ki, bu, bir igidin ömrüdür. Bu ömür də özünün acılı-şirinli xatirələri ilə doludur. Elə bizim bir dəfə gəmi ilə xarici ölkəyə səfərimiz özü böyük bir kitabın mövzusudur. Biz, bir vaxtlar Sovetlər İttifaqının bayrağı altında gəmi ilə dünya ölkələrini gəzirdik. Artıq 27 ildir ki, milli bayrağımızın altında dünya sularında üzürük. Üçrəngli bayrağımıza maraqla baxan əcnəbiləri gördükdə biz də qürur duyuruq. Biz bu dövləti göz bəbəyi kimi qorumalıyıq. Çünki bu müstəqillik yolunda milyonlarla insanlar öz həyatlarını qurban veriblər. Sürgünlərdə, qərib ellərdə "Vətən" deyərək gözlərini əbədi yumublar. Tale mənə qismət edib ki, xaricdə yaşayan insanların həyatı, yaşayış tərzi ilə yaxından tanış olmuşam. İspaniya, İtaliya, Fransa, Yuqoslaviya, Yunanıstan, İsrail, Almaniya, Polşa, Çexoslavakiya və başqa ölkələr yaddaşıma əbədi həkk olunub. Həmin ölkələrdə görüb-götürdüyüm yaxşı işləri həmişə öz işlərimdə tətbiq etmişəm. Axı dünya həqiqətən də gör-götür dünyasıdır. Ona görə də tələbələrimə, övladlarıma, yaxından tanıdığım cavanlara həmişə tövsiyə edirəm ki, özlərindən böyüklərə diqqətlə qulaq assınlar, onlardan bacardıqları qədər yaxşı şeyləri öyrənsinlər.

- Biz, Dəniz Akademiyasının mərkəzdə yerləşən siniflərindən birində oturub, sizinlə söhbət edirik. Öyrənmişəm ki, bu binanın 1990-cı illərdə Zığda yerləşən Ali Hərbi Dənizçilik Məktəbinə verilməsinin qarşısını alan əsas səbəbkarlardan biri məhz siz olmusunuz. Həmin işləri necə xatırlayırsınız?

– O dövr doğrudan da, çox çətin idi. Günlərin bir günü həmin vaxt müdafiə naziri bizim məktəbə gəldi və dedi ki, "sizin Dəniz Yolları Məktəbini Zığda yerləşən Ali Hərbi Dənizçilik Məktəbi ilə birləşdirmək istəyirik". Sonra mən bir neçə müəllimimizlə Prezident Aparatına getdik və orada Nazirlər Kabinetinin qərar layihəsi ilə də tanış olduq. Biz məktəbimizin müəllimlərinin çox kəskin formada yazdığı etiraz məktubunu onlara təqdim etdik. Orada bu məsələnin çox ciddi olduğunu görüb bizim Dəniz Yolları Məktəbini Ali Hərbi Dənizçilik Məktəbi ilə birləşdirmədilər və binadan da əl çəkdilər.

- Sizi tələbələr də çox sevir. Bu sevgi nədən qaynaqlanır?

- Müəllim tələbəyə öz övladı kimi yaxınlaşmalıdır. Onları öz övladı kimi sevməlidir. Çalışıram ki, onlarla ədalət prinsipində işləri qurum. Mən bir məsələni də burada bildirmək istəyirəm. Gənclərin formalaşmasını üç istiqamətin vəhdəti təşkil edir. Birinci ailə, ikinci asudə vaxtı necə keçirmək və üçüncü də həmin gəncin təhsilə münasibəti. Mən tələbələrimlə ətraflı söhbət əsnasında hər birində bu üç cəhəti qismən öyrənəndən sonra çalışıram ki, onları təhsildən sonrakı həyata lazım olan səviyyədə hazırlayım. Çünki gəmiçi həyatı çox çətin, məşəqqətli həyatdır. Bu həyata hər adam dözə bilmir. Burada insanda dəmir iradə və böyük səbir olmalıdır. Bunlar birlik təşkil edəndə insan bütöv olur.

- Sizin Dövlət Dəniz Akademiyasında axır vaxtlar çoxlu yeniliklər olub.

- Bəli. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin əmri ilə 2015-ci ilin iyul ayından Çingiz müəllim bura rektor təyin olunub. O, rektor təyin olunandan sonra Akademiyada çox böyük işlər görülüb və görülür. Hər gün tələbələrə gündə iki dəfə ödənişsiz yemək verilir. Tələbələrə geyim də ödənişsizdir və onlara tədrisin nəticələrinə görə təqaüd də verilir. Yataqxana ödənişsizdir. Tələbələr xaricə üzən gəmilərdə təcrübələrinin nəticələrinə görə pul alırlar. Müəllimlərin məvacibi artıb. Gündə bir dəfə yemək ödənişsizdir. Akademiyamızın bütün müəllim və tələbə heyəti bu xidmətlərinə görə ona öz minnətdarlığını bildirirlər. Mən bir şeyə də çox sevinirəm ki, mənim də çoxlu keçmiş tələbələrim elmi işlərini müdafiə ediblər, ali dərəcələr alıblar və hazırda Akademiyanın tədris, dekan, kafedra müdiri, müəllim və assistent vəzifələrində çalışırlar. "Gəmi energetik qurğuları" kafedrasının müdiri, mənim elmi rəhbərim dosent Akif İsmayılov təyin olunandan sonra çox işlər görülüb, laboratoriyamız genişlənib və tədqiqatlar üçün geniş imkanlar yaranıb. O çalışır hamıya əlindən gələn köməklikləri eləsin ki, müəllimlərimiz elmi işlərini müdafiə eləyə bilsinlər. Mən onu dənizçi dili ilə desək güclü yedəkçi hesab eləyirəm.

- Sizə Dəniz Akademiyasında hamı böyük hörmətlə yanaşır. Hətta Akademiyanın işçisi Gülnarə Hüseynova deyir ki, "Hacı müəllim həyata yalnız yaxşılıq etmək üçün gəlib. O, yaxşılıq mücəssəməsidir". Məgər siz həyatda pislik etməmisiniz?

- Pisliyi yalnız özümə etmişəm. Belə ki, heç vaxt özümü və ailəmi düşünməmişəm. Onlara lazım olan şəraiti yarada bilməmişəm. Bəlkə də bu ailədən irəli gəlir. Çünki atam Mirzə kişi də həmişə insanlara yaxşılıq eləyib və bizi də bu ruhda kökləyib. O, bu atalar sözünü tez-tez təkrar eləyərdi: "Yaxşı iş heykəl kimidir, hər yerdən görünür. Əgər yaxşılıq eləyib bir şey umursansa, o yaxşılığı eləməsən yaxşıdır".

- Bizim millətin belə bir gözəl kəlamı var: "Çox gəzən çox bilər". Siz bu fikrə necə baxırsınız?

- Əgər mən uzun illər xarici ölkələrə getməsəydim, orada olan yaxşı işləri görməsəydim, onda mənim üçün yaşamağın da mənası olmazdı. Onda mən öz tələbələrimə lazım olan incəlikləri də öyrədə bilməzdim. Çünki xarici ölkələrdə olanlarla burada olanları müqayisə etdikcə, maraqlı fikirlər ortaya çıxırdı. Çalışırdım ki, həmin yaxşı işləri burada da tətbiq edim. Tələbələrimə də həmişə qarşısında olan adamı diqqətlə dinləməyi, ona qulaq asmağı tövsiyə edirəm. Çünki onlar təhsillərini başa vurandan sonra dənizin şıltaq təbiəti vaxtı bir-birini eşitsələr, bir-birinə diqqətlə qulaq assalar, gəmini və özlərini dənizin burulğanından, şıltaqlığından qoruya bilərlər. Yeri gəlmişkən xatırladım ki, bu il 100 yaşı tamam olan Cümhuriyyətimizin qorunması yolunda şəhid olanlarımız da, məcburən doğma vətəndən didərgin düşənlərimiz də çox olub. Onlar yad ellərdə "Vətən, can Vətən" deyib gözlərini əbədi yumublar. Heç olmasa onların ruhu şərəfinə bir olub, Almaz İldırımın qərib eldə Azərbaycanla bağlı dediyi bu sözləri yada salaq:

- Konlümə tək Kəbə bildim səni mən,
Sənsiz neynəm Allahı mən, dini mən.
Sənsiz neynəm qürbət eldə günü mən?!
Azərbaycan, mənim tacım-taxtım oy,
Oyanmazmı kor olası bəxtim oy!

Bu gün Vətənini sevən hər bir azərbaycanlı özü-özündən soruşmalıdır: "Ölkəmizin müstəqilliyi, millətimizin birliyi, insanlarımızın firavan yaşaması üçün mən nə edirəm?" Bu suala cavab tapa bilməyənin özünə azərbaycanlı deməyə haqqı yoxdur. Çünki atalarımız deyir ki, "Vətən elin evi, Vətənə məhəbbət isə iman əsəri olmalıdır".

Ağalar İDRİSOĞLU,
Əməkdar incəsənət xadimi

"PORT-LİNE" PROQRAMI BAKI LİMANINDA TRANZİT YÜKLƏRİN MANEƏSİZ DAŞINMASININ ASANLAŞDIRILMASI MƏQSƏDİLƏ PROSESİN TAM AVTOMATLAŞDIRILMASINI NƏZƏRDƏ TUTUR

Bakı Beynəlxalq Dəniz Ticarət Limanının nümayəndə heyəti İtaliyanın Triest və Sloveniyanın Koper limanlarında olub.

Limandan bildirilib ki, qurumun baş direktorunun müavini Məftun Abbasov, Satış və Marketinq Departamentinin müdiri Məmməd Həmidov və "Trans Caspian Stevedoring" şirkətinin müdiri Emin Maqsudov hər iki limanın yükaşırma, insan resursları, informasiya texnologiyaları və sair əməliyyat sistemləri ilə tanış olublar.

Nümayəndə heyəti liman əraziləri ilə əyani tanış olub, o cümlədən müxtəlif təyinatlı terminallarda gəmi əməliyyatları, yüklərin saxlanma yerləri, qeydiyyata alınması və sair prosesləri yerindəcə müşahidə etmək imkanı əldə ediblər.

Həmçinin səfər zamanı Bakı Limanının nümayəndələri İtaliyanın "DBA Group" şirkətinin rəhbərliyi ilə işgüzar görüş keçiriblər. Bu şirkət Ələt qəsəbəsində yerləşən Yeni Bakı Limanı üçün bütün liman əməliyyatlarının idarə edilməsi məqsədilə "Port-line" proqram təminatını yaradıb. "Port-line" proqramı Bakı Limanında tranzit yüklərin maneəsiz daşınmasının asanlaşdırılması məqsədilə prosesin tam avtomatlaşdırılmasını nəzərdə tutur.

Səfər çərçivəsində Bakı Limanının nümayəndələri Azərbaycanın igid oğlu, Sovet İttifaqı və Sloveniya qəhrəmanı Mehdi Hüseynzadənin məzarını və Maribor şəhərindəki abidəsini ziyarət ediblər.

"CMS" ŞİRKƏTİ QAZAXISTANDA NEFT VƏ QAZ SƏRGİSİNDƏ İŞTİRAK EDİB



"Caspian Marine Services Limited" ("CMS") 10-12 aprel tarixlərində Qazaxıstanda keçirilən Beynəlxalq Neft və Qaz sərgisində iştirak edib.

Əsas məqsədi neft-qaz müəssisələrini dəstəkləmək, sənayenin bu sahəsində fəaliyyət göstərənləri innovativ texnologiyalarla tanış etməkdən ibarət olan sərgidə dünyanın 75 ölkəsinə məxsus müxtəlif şirkətlər iştirak edib.

Sərgi mədən yağı və qaz şirkətləri, neft-qazın kəşfi və istehsalı, neftin nəqli, neft və qaz avadanlıqları kimi bir neçə bölmədən ibarət olub.

"CMS"-in əməkdaşları sərgidə Qazaxıstanın neft və qaz sənayesi nümayəndləri ilə bir sıra görüşlər keçirib, gələcək tərəfdaşlıq məsələlərini müzakirə ediblər.

GƏMİÇİLİKDƏ TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİNƏ CİDDİ DİQQƏT YETİRİLİR

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin rəhbər şəxsləri üçün "Təhlükəsizlik Günü" keçirilib.

Toplantıda 2018-ci ilin I rübündə dünya gəmiçiliyində qeydə alınan hadisələrə nəzər salınıb, onların başvermə səbəblərindən danışılıb.

Tədbirdə həmin dövrdə Azərbaycan Xəzər Dəniz Gəmiçiliyində qeydə alınmış hadisələrin təsviri verilib. Cari ilin ilk üç ayında "Təhlükəsizliyin Keyfiyyətli İdarəedilməsi Sistemi"ndə (TKİS) edilmiş dəyişikliklər, donanmalar və idarələrdə I rüb üzrə KSƏTƏMM statistikası, idarələr üzrə təkrarlanan nöqsanlarla bağlı məruzələr dinlənilib, fikir mübadiləsi aparılıb.

Tədbirdə baş verə biləcək hadisələrin qarşısını almaq üçün neftçilərin daşınması zamanı istismar olunan "AXDG" QSC-yə məxsus "General Əsədov" gəmisində sərnişinlər üçün təhlükəsizlik qaydalarına dair təlimat videosu nümayiş edilib. Bununla belə, ötən rüb görülən işlər və qarşıdakı hədəflərimiz kimi mövzular diqqət mərkəzində olub.

Keyfiyyət, sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühitin mühafizəsi departamentinin (KSƏTƏMM) rəisi Ələkbər Əzizli geniş məruzə ilə çıxış edib. O, Gəmiçilikdə təhlükəsizlik məsələlərinin hər zaman xüsusi diqqətdə saxlanıldığını deyib. Bildirib ki, Gəmiçilikdə təhlükəsizliklə bağlı sərt tələblər mövcuddur və bu tələblərə hər bir əməkdaş əməl etməlidir.

Toplantıda "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-də təhlükəsizliklə bağlı keçirilən təlimlər və onların əhəmiyyəti haqqında da ətraflı məlumat verilib. Bildirilib ki, maarifləndirmə hesabına hadisələrin sayında azalma qeydə alınıb. Müsbət nəticənin əldə olunmasında hadisələrin araşdırılması və təhlilinin mühüm rol oynadığı xüsusi diqqətə çatdırılıb.

DƏNİZ AKADEMİYASINDA QANVERMƏ AKSİYASI KEÇİRİLİB



Azərbaycan Dövlət Dəniz Akademiyasında "Donor günü" adı altında növbəti xeyriyyə tədbiri – qanvermə aksiyası keçirilib. Aksiyanın əsas məqsədi talassemiyadan əziyyət çəkən və davamlı qan köçürülməsinə ehtiyacı olan uşaqlara dəstək olmaqdır.

"Donor günü"ndə ADDA-nın kollektivi könüllü olaraq bu humanist aksiyaya qoşulub.

Aksiya Mərkəzi Qan Bankının səyyar həkim briqadasının köməyi ilə bütün sanitar qaydalara uyğun şəraitdə baş tutub.

Qeyd edək ki, humanitar və sosial layihələr çərçivəsində təşkil edilən qanvermə aksiyası hər il Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin bütün müəssisələrində olduğu kimi, ADDA-da da keçirilir. Akademiyanın professor-müəllim heyəti, tələbələr bu tip aksiyalarda hər zaman fəal iştirak edirlər.

"XƏZƏR DƏNİZİ REGİONUNDAN BİRBAŞA AVROPAYA QAZIN GƏTİRİLMƏSİ BAŞLICA PRİORİTET OLARAQ QALIR"

Brüsseldə IV Avropa İttifaqı (Aİ) Enerji Sammiti keçirilib. Sammitdə Avropa Komissiyasının iqlim dəyişikliyi və enerji komissarı Miqel Ariyes Kanyete, Bolqarıstanın enerji nazirinin müavini Jeço Stankov, Avropa Parlamentinin Sənaye, Tədqiqatlar və Enerji Komitəsinin sədri Yerji Buzek çıxış ediblər.

M.A.Kanyete çıxışında daha təmiz və davamlı enerjiyə keçidin zəruri olduğunu, bununla belə Aİ qonşuluğunda baş verən geosiyasi qeyri-müəyyənliklərin bu prosesi sürətləndirməli olduğunu bildirib. Qeyd edilib ki, Aİ daxilində üzvi mənşəli yanacaq istehsalı və istehlakının azalması heç də həmin yanacağın idxalının azaldılması sürəti ilə eyni olmayacaq. Belə ki, 2016-cı ildə Aİ enerji istehlakının 72 faizini neft, qaz və kömür hesabına təmin edib. Həmin ildə istehlak olunan neftin 88 faizi, təbii qazın isə 40 faizi idxal hesabına ödənilib. İdxal olunan təbii qazın 42 faizi Rusiya, 34 faizi Norveç, 13 faizi mayeləşdirilmiş təbii qaz (LNG) formasında, 11 faizi Əlcəzair və Liviyadan təmin edilib.

Komissar bildirib ki, əgər orta və uzunmüddətli perspektivdə əsas hədəf Aİ-nin enerji istehlakını karbohidrogen resurslarının idxalından asılılığını azad etməkdirsə, qısamüddətli perspektiv üçün əsas məqsəd idxalın şaxələndirilmiş təchizatçılar tərəfindən təmin olunmasıdır. Bu xüsusda komissar vurğulayıb ki, Cənub Qaz Dəhlizi Aİ-nin şaxələndirmə səylərində vacib layihə rolunu oynayır. Onun sözlərinə görə artıq Şimal-Cənub (Polşanın Baltik dənizi sahillərindən LNG və sıxılmış təbii qazın (CNG) Qara və Egey dənizi ölkələrinə nəqlini nəzərdə tutur) və Şərq qaz dəhlizləri (Rusiya) fəaliyyət göstərir və hazırda Xəzər dənizi regionundan birbaşa Avropaya qazın gətirilməsi başlıca prioritet olaraq qalır. İlk qazın bu ilin yayında Türkiyəyə, 2020-ci ildə isə Avropaya çatması bu işə cəlb olunmuş hər kəsin uğurunun göstəricisi olacaq.

Pərvanə Qarayeva

SOCAR İSTİQRAZLARI SAHİBLƏRİNİN QAZANCI 7,5 MİLYON DOLLARA ÇATIB

Aprelin 17-də SOCAR istiqrazları üzrə növbəti faizlər ödənilib.

"SOCAR Capital" şirkətindən AZƏRTAC-a verilən məlumata görə, SOCAR istiqrazlarının sahiblərinə hər istiqraza görə 12,5 dollar olmaqla, ümumilikdə 1 milyon 250 min dollar vəsait ödənilib. Bu, istiqrazlar üzrə 6-cı faiz ödənişidir, bununla da SOCAR istiqrazları sahiblərinin qazancı 7,5 milyon dollara çatıb.

"SOCAR Capital"dan bildirilib ki, istiqrazlar üzrə faiz ödənişi üçün tələb olunan vəsait Milli Depozit Mərkəzinin (MDM) Mərkəzi Bankdakı hesabına bir həftə əvvəlcədən köçürülüb: "Faiz ödənişi üçün tələb olunan 1,25 milyon dollar vəsait aprelin 10-da MDM-in hesabına ödənilib. Artıq bu gündən həmin vəsaitlər istiqraz sahiblərinin bank hesablarında olacaq".

Şirkətdən qeyd edilib ki, SOCAR istiqrazlarının buraxılmasından ötən 1,5 il ərzində istiqrazlara xidmət və faiz ödənişləri intizamla yerinə yetirilib: "İstiqrazların buraxılışı zamanı elan edildiyi kimi, SOCAR digər qiymətli kağızlarda olduğu kimi, daxili istiqrazlar üzrə də öhdəliklərinə ciddi surətdə əməl edir. Nəticədə SOCAR istiqrazları ölkədə ən etibarlı və likvid maliyyə alətinə çevrilib".

SOCAR-ın 2016-cı ildə daxili bazar üçün buraxdığı istiqrazların nominal qiyməti 1000 ABŞ dolları, illik gəlirliliyi 5 faiz və ya hər istiqraza görə ildə 50 dollardır. İstiqrazlar üzrə faizlər 3 aydan bir olmaqla, ildə 4 dəfə ödənilir.

SOCAR bu istiqrazlara nominal qiymətdən alış zəmanəti də verib, nəticədə istiqrazların qiyməti heç vaxt 1 000 dollardan aşağı enmir və istiqraz sahibləri onları dərhal nağd pula çevirə bilir.

Gəlirliyin və likvidliyin yüksək olmasına görə, SOCAR istiqrazları bazarda ən sərfəli yatırım aləti sayılır. Əhali və hüquqi şəxslər istiqrazlara böyük maraq göstərirlər. Nəticədə təkcə 2018-ci ildə SOCAR istiqrazları ilə əməliyyatların həcmi 19 milyon dolları keçib. İstiqrazın alıcıları arasında təkcə Azərbaycan deyil, xarici ölkələrin vətəndaşları da var.

2021-ci ilədək qüvvədə olan SOCAR istiqrazları bu müddətin sonunadək öz sahiblərinə 25 milyon ABŞ dolları həcmində gəlir gətirəcək.

Ölkə vətəndaşları, eləcə də yerli və xarici fiziki, hüquqi şəxslər SOCAR istiqrazlarını təkrar bazardan əldə edə bilərlər. Bunun üçün onlar "ASAN xidmət"in 1 və 5 saylı Xidmət Mərkəzlərinə, eləcə də *19 99 Qaynar xəttə müraciət etməlidirlər.

TANAP-IN İKİ FAZASI ÜZRƏ İŞLƏRİN 93 FAİZDƏN ÇOXU TAMAMLANIB

TANAP layihəsinin iki fazası üzrə işlərin ümumilikdə 93 faizdən çoxu icra edilib. Bu il iyulun əvvəlindən etibarən TANAP-la Türkiyəyə kommersiya məqsədilə ilk qaz veriləcək.

Bu barədə TANAP-ın baş direktoru Saltuk Düzyol deyib.

O bildirib ki, uzunluğuna və diametrinə görə Cənub Qaz Dəhlizinin ən böyük hissəsi olan TANAP layihəsi üzrə işlər artıq son mərhələyə qədəm qoyub. TANAP-ın 56 düymlük 1350 kilometr uzunluğundakı hissəsinin inşası tamamlanıb, boru kəmərinə sınaq məqsədilə qaz vurularaq Əskişəhərə çatdırılıb. Bu hissədə boru kəməri marşrutu boyunca fiber-optik kabel də çəkilib.

Layihə üzrə Faza-0, yəni cari ilin ortalarında Türkiyənin "Botaş" şirkətinin sisteminə ilk qazın qəbul edilməsi üçün işlərin 99 faizi tamamlanıb. Faza-1, yəni 2019-cu ilin sonunda Türkiyədən keçməklə Avropaya təbii qazın verilməsi üçün nəzərdə tutulan işlər üzrə isə 80 faizdən çox irəliləyişə nail olunub. İlkin mərhələdə TANAP-la Türkiyəyə ildə 2 milyard kubmetr qaz veriləcək. Daha sonrakı 3 il ərzində bu həcm 6 milyard kubmetrə çatdırılacaq.

Bundan başqa, TANAP-ın Dardanel boğazından keçən 36 düymlük 18 kilometr uzunluğundakı qoşa boru kəmərinin tikintisi və fiber optik kabelin dəniz altına döşənməsi işləri də artıq yekunlaşıb. Boru kəmərinin üzəri örtülərək mühafizə olunub. Xəttin quruya çıxdığı hər iki sahildə isə bərpa işləri görülüb.

Boru kəmərinin Əskişəhərin Seyitqazi bölgəsindəki CS5 kompressor və MS2 ölçmə stansiyalarının inşası tamamlanıb. Sistemə təbii qazın alınmasına başlanılıb.

TANAP-ın inşası çərçivəsində işlərin pik vaxtında layihə üzrə idarəetmə komandaları və podratçılar da daxil olmaqla tikinti sahələrində təxminən 9 min 200-dək işçi çalışıb. Layihə üzrə indiyədək 82 milyon nəfər-saat iş görülüb.

Qeyd edək ki, TANAP-ın səhmdarlarının bu layihədə payı belədir: "Cənub Qaz Dəhlizi" QSC - 51 faiz, STEAŞ - 7 faiz, "Botaş" - 30 faiz və BP şirkəti - 12 faiz.

ÇENDU LOGİSTİKA MƏRKƏZİ TRANSXƏZƏR MARŞRUTU ÜZRƏ BEYNƏLXALQ ASSOSİASİYAYA QOŞULMAQ NİYYƏTİNDƏDİR

Çendu beynəlxalq dəmir yolu və logistika mərkəzi "Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyasına qoşulmaq niyyətindədir.

Bu fikir Azərbaycanın Çindəki səfiri Əkrəm Zeynallının Çinin Siçuan vilayətinin inzibati mərkəzi olan Çendu şəhərində keçirdiyi görüşlərdə səslənib.

Vilayətin rəhbər şəxsləri, logistika şirkətlərinin nümayəndələri, Çendu dəmir yolu və logistika mərkəzinin rəsmiləri ilə keçirilən görüşlərdə iki ölkə, habelə Azərbaycan ilə Siçuan vilayəti arasında münasibətlərin müxtəlif sahələrdə inkişaf perspektivlərindən, "Bir kəmər-bir yol" strategiyası çərçivəsində Çinin Avropa ilə dəmir yolu əlaqəsində ölkəmizin strateji iqtisadi potensialından danışılıb.

Çinin dəmir yolu qovşaqlarından biri olan Çendu ölkənin Avropa ilə dəmir yolu yükdaşımalarında əhəmiyyətli tranzit və logistik mərkəz rolunu oynayır. Çendu beynəlxalq dəmir yolu və logistika mərkəzindən Avropanın bir çox şəhərlərinə və əks istiqamətdə yükdaşımalar indiyədək iki müxtəlif marşrut üzrə həyata keçirilib. Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin istifadəyə verilməsi ilə yüklərin Çendudan Avropaya daşınması üçün yeni imkan yaranıb. Mərkəzin rəhbərliyi bu yol ilə yükdaşımaların perspektivli olduğunu düşünərək, Azərbaycandan keçən istiqaməti özünün rəsmi marşrutlar siyahısına daxil edib. Bu kimi məsələlərin müzakirəsi məqsədilə mərkəzin nümayəndə heyəti Azərbaycana səfərə dəvət edilib.

Azərbaycanın Çindəki səfiri Əkrəm Zeynallı Çenduda yerli KİV nümayəndələri üçün keçirdiyi mətbuat konfransında Azərbaycan ilə Siçuan vilayəti arasında iqtisadi, mədəni, humanitar sahələrdə əlaqələrin inkişafına, habelə Transxəzər beynəlxalq ticarət və tranzit dəhlizinin potensialına, Azərbaycanın tranzit-logistika imkanlarına dair sualları cavablandırıb.

Şahin Cəfərov

XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA SUALTI ARXEOLOJİ TƏDQİQATLARIN APARILMASI PERSPEKTİVLƏRİ ARAŞDIRILIB

Rusiya Coğrafiya Cəmiyyəti Sualtı Tədqiqatlar Mərkəzinin mütəxəssislərindən ibarət nümayəndə heyəti Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunda olub.

İnstitutdan AZƏRTAC-a bildiriblər ki, görüşdə Xəzər dənizinin Azərbaycan sektorunda sualtı arxeoloji tədqiqatların aparılmasının perspektivləri müzakirə edilib.

İnstitutun direktoru, professor Maisə Rəhimova ötən əsrin 60-80-ci illərində mərhum arxeoloq Viktor Kvaçidze tərəfindən sualtı arxeoloji tədqiqatların aparıldığını rusiyalı qonaqların diqqətinə çatdırıb.

Bu sahədə böyük təcrübəyə malik olan qonaqlar Azərbaycanda da sualtı arxeoloji tədqiqatlar aparmaq arzusunda olduqlarını söyləyiblər.

Görüşdə qeyd olunub ki, respublikamızda yalnız sovet dövründə sualtı arxeoloji tədqiqatlar aparılıb və bu sahənin hazırda xarici ölkə alimlərinin dəstəyi ilə yenidən dirçəldilməsi aktual problemlərdən biri olaraq qalmaqdadır. Gələcəkdə sualtı arxeologiya üzrə milli mütəxəssislərin hazırlanmasına zəmin olacaq birgə sualtı arxeoloji tədqiqatların aparılmasının vacibliyi vurğulanıb.

UNUTSAQ, UNUDULARIQ

FƏXR EDİRƏM Kİ...



Şərəfli tarixə malik Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi bu il 160 illiyini qeyd edəcək. Fəxr edirəm ki, soyadını daşıdığım nəsildə də taleyini Gəmiçiliklə bağlayan, inkişafına töhfəsini verən fədakar adamlar olmuşdur. Atam, babam və babamın atası Azərbaycan Xəzər Dəniz Gəmiçiliyində çalışmalarından həmişə qürur hissi keçiriblər.

Babamın atası Əliheydər kişinin valideynləri aileləri ilə birlikdə sonuncu zəlzələdən təxminən iki ay əvvəl Şamaxıdan Bakıya köçmüşlər. Əliheydər kişinin 101 faytonu varmış. Deyilənə görə, ağ faytonda özü gəzər, qalan 100 faytonla dəniz gəmi təsərrüfatının yüklərini daşıyarmış.

Babam Əlibala Əliheydər oğlu Ələkbərov 1902-ci il yanvarın 15-də Bakıda doğulmuşdur. 1910-cu ildən rus-tatar məktəbində 12 il təhsil aldıqdan sonra 1922-ci ildə Xəzər Dəniz Gəmiçiliyinin "Paris Kommunası" adına gəmi təmiri zavodunda əmək fəaliyyətinə başlamışdır. Bakı Dövlət Universitetinin "Fəhlə fakültəsi"nin nəzdində jurnalistika kursunu bitirdikdən sonra təqaüdə çıxana kimi Xəzər Dəniz Gəmiçiliyinin hazırda "Dəniz" adı ilə çap olunan "Xəzər Kommunisti" qəzetində müxtəlif vəzifələrdə işləmişdir.

Əlibala Ələkbərov, Kəbiri Ələkbərov və ya Əli Kəbiri imzaları ilə qələmə aldığı yazılarda dənizçilərin, gəmi təmirçilərinin fədakar əməyindən, uğurlarından söz açıb, onları daha yaxşı işləməyə ruhlandırmışdır.

Babam "Xəzər Kommunisti" qəzetinin əməkdaşı kimi tez-tez Mahaçqalaya, Həştərxana ezam olunmuş və oradan yazılar yazmışdır.

Babamın o vaxtlar Xəzər Dəniz Gəmiçiliyinin nəzdində fəaliyyət göstərən teatr dərnəyinin üzvləri, sonralar bütün xalqın sevimlisinə çevrilən görkəmli mədəniyyət xadimləri Ağasadıq Gəraybəyli, Əliağa Ağayev, Süleyman Ələsgərov, Ağasəlim Manafovla yaxın dostluqları olmuşdur.

O zamanlar "Xəzər Kommunisti" və "Bakı" qəzetlərinin redaksiyaları eyni ünvanda yerləşdiyindən babam həmin qəzetin baş redaktoru Nəsir İmanquluyevlə də dostluq edirmiş.

Babam Əlibala Ələkbərov təqaüdə çıxandan sonra da Gəmiçiliklə əlaqəsini kəsməmiş, ictimai-mədəni həyatında yaxından iştirak etmişdir.

Atam Nadir Ələkbərov da halal ruzisini uzaqlarda axtarmamış, uzun illər Gəmiçiliyin avtomobil bazasında sürücü işləmişdir.

Tahir ƏLƏKBƏROV

İLİN ƏVVƏLİNDƏN ƏHALİNİN SAYI 13387 NƏFƏR ARTIB

İlin əvvəlindən Azərbaycan əhalisinin sayı 13387 nəfər, yaxud 0,1 faiz artaraq martın 1-nə 9911472 nəfərə çatıb. Əhalinin bir kvadratkilometrə düşən sayı 114 nəfər olub.

Dövlət Statistika Komitəsindən bildiriblər ki, əhalinin ümumi sayının 52,9 faizi şəhər, 47,1 faizi kənd sakinlərinin, 49,9 faizi kişilərin, 50,1 faizi isə qadınların payına düşür. Hazırda hər 1000 kişiyə orta hesabla 1004 qadın düşür.

Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən cari ilin yanvar-fevral ayları ərzində ölkədə 23331, yaxud hər gün təxminən 395, saatda isə 16 doğulmuş körpə qeydə alınıb və əhalinin hər 1000 nəfərinə bu göstərici 14,7 təşkil edib. Körpələrdən 422-si əkiz, 24-ü üçəm doğulanlardır. Yeni doğulan körpələr arasında qızların xüsusi çəkisi 47,3 faiz təşkil edərək hazırda hər 100 doğulan qıza 112 oğlan düşür (bioloji norma 105-107 təşkil edir).

Yanvar-fevral aylarında ölkədə 10500 ölüm halı qeydə alınıb. Əhalinin hər 1000 nəfərinə ölənlərin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 7,1-dən 6,6-dək azalıb.

Cari ilin ilk iki ayında Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 8065 nikah və 2383 boşanma halları qeydə alınıb və əhalinin hər 1000 nəfərinə düşən nikahların sayı 5,1, boşanmaların sayı isə 1,5 olub.

Bu ilin yanvar-fevral ayları ərzində Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən daimi yaşamaq üçün Azərbaycana 756 nəfər gələn və 200 nəfər ölkədən gedən qeydə alınaraq, miqrasiya saldosu müsbət 556 nəfər təşkil edib.

KAPİTAN VƏ BAŞ MEXANİK QƏZA İLƏ BAĞLI İFADƏ VERİBLƏR

Aprelin 7-də Malta bayrağı altında üzən "Vitaspirit" tankeri İstanbul boğazında Fateh Sultan Mehmet körpüsü altında sahildəki villaya çırpılıb.

Qara dəniz-Mərmərə xətti ilə hərəkət edən 225 metr uzunluğunda gəminin binaya çırpılması nəticəsində Həkimbaşı Saleh Əfəndi tikilisinə 50 milyon dollarlıq ziyan dəyib. Gəmi hadisə yerindən yedək gəmisinin köməyi ilə aralanıb. Bildirilir ki, onun çırpıldığı yer əsasən restoranlar olan ərazidir.

"Vitaspirit" gəmisinin filippinli kapitanı Edgardo Deso məhkəmədə ifadə verərkən deyib:"Hadisə 15:20-də baş verib. "Baş mexanik daxili telefondan zəng edərək mühərrikdə problem olduğunu dedi. Ona boğazdan keçdiyimizi, dar bir kanalda olduğumuzu söyləyərək təcili tədbir görməsini bildirdim. Mən də mühərrikin getdikcə zəif işlədiyini və istiqamətin liman tərəfə dəyişdiyini müşahidə edirdim. Bu vəziyyətdə biz köməkçi kapitanla birlikdə lövbər atmaq qərarı verdik. Amma bir neçə dəqiqə sonra mühərrikin dövriyyəsi 4400-dən 6000-ə yüksəldi. Bu zaman lövbər atmaq çox təhlükəlidir. Suyun dərinliyi 60 metr olduğundan lövbər atsaydıq, bata bilərdik. Ona görə də fikrimizdən daşındıq. Bundan sonra gəmini dayaz bir yerdə saya oturtmaq istədim. Məqsədim zərəri minumuma endirmək idi. Təəssüf ki, mühərriklər fəaliyyətini tamamilə dayandırdığı üçün mən o dayaz nöqtəyə gedə bilmədim və gəmi yaxındakı evə çırpıldı."

Edgardo Deso uzun müddətdir kapitan işlədiyini, ancaq bu gəmidə 2017-ci ilin iyunun 5-dən xidmət etdiyini deyib.

"Keçən ay da boğazdan keçmişəm. İşə başladığım vaxtdan indiyədək heç vaxt mühərrik problemi ilə qarşılaşmamışam",-deyə o əlavə edib.

Daha sonra gəminin baş mexaniki Adalno Diariko danışıb. O, mühərriklərin dayanma səbəbini bilmədiyini deyib: "Gəmi motorçusu əsas mühərrikin beşinci silindirindən su sızıntısının olduğunu bildirdi. Mən də maşın şöbəsinə gedib səbəbin nədən qaynaqlandığını öyrənməyə çalışdım. Suyun nə qədər sürətli sızdığını görüb dərhal kapitana xəbər verdim. Təkrar maşın şöbəsinə gedib gördüm ki, mühərriklər yavaşlayıb. Daha sonra onlar fəaliyyətini dayandırdı. Sonra isə çırpılma baş verib, ancaq mən maşın şöbəsində olduğum üçün bunu hiss etmədim."

Malikanə sahiblərinin vəkili isə iddia edib ki, gəmi kapitanı qaçmaq üçün cəhd göstərməyib, onlar saraya çırpılmağı çıxış yolu bilib.

İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATINA ÜZV DÖVLƏTLƏRİN NƏQLİYYAT NAZİRLƏRİNİN IX TOPLANTISI KEÇİRİLƏCƏK

Mayın 3-də Türkmənistanın "Avaza" Milli Turizm Zonasında nəqliyyat sahəsinə həsr olunmuş beynəlxalq forum keçiriləcək.

Tədbir çərçivəsində İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin nəqliyyat nazirlərinin IX toplantısının keçirilməsi də nəzərdə tutulub.

Toplantıda nəqliyyat potensialının səmərəli istifadəsi, həmçinin turizm sektorunda əlaqələrin genişləndirilməsi, investisiya fəaliyyətinin təşviqi kimi nəqliyyat və logistika sahəsində faydalı əməkdaşlığın inkişafı ilə bağlı məsələlər müzakirə olunacaq.

Bundan başqa, beynəlxalq nəqliyyat əməkdaşlığı mövzusuna həsr olunmuş sərgi də təşkil olunacaq.

İlahə Əhmədova

İKİNCİ DÜNYA MÜHARİBƏSİNDƏN SONRA YAPONİYA İLK DƏFƏ HƏRBİ-DƏNİZ QÜVVƏLƏRİNİ HƏRƏKƏTƏ GƏTİRİR

Yaponiya İkinci Dünya müharibəsindən sonra ilk dəfə olaraq hərbi-dəniz qüvvələrini hərəkətə gətirib.

"webtekno.com" saytı xəbər verir ki, Yaponiya qanunlarında hərbi-dəniz donanmasından istifadəyə qadağan qoyulmasına baxmayaraq, ölkədə bu fəaliyyət uzun fasilədən sonra yenidən bərpa olunub. Ölkə qanunlarında bu qadağanı nəzərdə tutan xüsusi bir maddə də mövcuddur.

Yaponiya hökuməti ordusunu gücləndirmək məqsədilə sözügedən qanunda dəyişiklik edəcəyini bildirib. Belə ki, Sasebo şəhərində yerləşən hərbi hissələrin birində tədbir təşkil olunub. ABŞ əsgərlərinin də qatıldığı hərbi tədbirdə saxta şəkildə işğal olunan bir ada Yaponiyanın hərbi-dəniz qüvvələri tərəfindən azad edilib.

XVII XƏZƏR BEYNƏLXALQ NƏQLİYYAT, TRANZİT VƏ LOGİSTİKA SƏRGİSİ KEÇİRİLƏCƏK

İyunun 11-13-də Bakı Expo Mərkəzində XVII Xəzər Beynəlxalq Nəqliyyat, Tranzit və Logistika "TransCaspian/Translogistica 2018" sərgisi keçiriləcək.

"Iteca Caspian" şirkətindən bildirilib ki, sənaye müəssisələrinin yeni məhsul və nailiyyətlərini nümayiş etdirən və mahiyyət etibarı ilə bir çox cəhətdən nəqliyyat sektorunun gələcək inkişaf vektorunu müəyyənləşdirən bu sərgi Xəzər regionunda aparıcı nəqliyyat tədbirlərindən biridir. Sərgidə əsas dövlət nəqliyyat qurumları, eləcə də dəmiryol sektoru, dəniz sənayesi, aviasiya, kommersiya təyinatlı nəqliyyat, daşınma və logistika xidmətləri sahəsində fəaliyyət göstərən kommersiya şirkətləri bir arada toplanır.

Sərgi Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, TRACECA, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) tərəfindən dəstəklənir. Sərginin təşkilatçıları qismində "Iteca Caspian" və "ITE Group" şirkətləri çıxış edirlər.

Azərbaycan, Avstriya, Belarus, Litva, Rusiya, Türkmənistan, Türkiyə, Ukrayna, Yunanıstan və digər ölkələri təmsil edən şirkətlər nəqliyyat sahəsinin geniş məhsul və xidmətlər çeşidini (yükdaşımalar, lokomotiv, sərnişin və yük vaqonlarının istehsalı, hərəkət heyətinin təmiri, dəmiryol nəqliyyatı üçün komplektləşdirici hissələr, gəmiqayırma və gəmi təmiri, liman xidmətləri, kommersiya təyinatlı nəqliyyat vasitələri üçün ehtiyat hissələri və sair) təqdim edir. Bu il Türkmənbaşı Beynəlxalq Dəniz Limanı sərgidə debüt edəcək.

Sərgidə ticarət şirkətləri ilə yanaşı, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC, "Azərbaycan Dəmir Yolları" QSC, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC və Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyi kimi dövlət nəqliyyat qurumları da iştirak edəcəklər. Sərginin işgüzar proqramı çərçivəsində iştirakçılar və iri yerli şirkətlər arasında ikitərəfli görüşlər keçiriləcək.

"TransCaspian/Translogistica" sərgisi ilə eyni platformada daha iki sərgi: VIII Xəzər Beynəlxalq Yol İnfrastrukturu və İctimai Nəqliyyat "Road & Traffic 2018" və V Yubiley Xəzər Beynəlxalq Kater və Yaxtalar "CIBS 2018" sərgiləri keçiriləcək.

XVII Xəzər Beynəlxalq Nəqliyyat, Tranzit və Logistika "TransCaspian/Translogistica" sərgisi nəqliyyat strukturlarının rəhbər və mütəxəssisləri ilə görüşmək, eləcə də nəqliyyat texnologiyalarının inkişafını nümayiş etdirməklə yanaşı, dövlət tərəfindən hazırlanan perspektivli infrastruktur layihələri ilə tanış olmaq və yeni satış kanalları tapmaq üçün əlverişli şərait yaradır.

Ətraflı məlumatı və sərgiyə elektron dəvətnaməni http://www.transcaspian.az/az-register/ rəsmi saytdan əldə etmək mümkündür.

"İPƏK YOLU" MONUMENTİ AÇILIB

Türkmənistanın Amudərya şəhərində "İpək yolu" monumentinin təntənəli açılışı olub.

28 metr hündürlüyündə olan heykəltəraşlıq kompozisiyası Amudərya avtomobil və dəmir yolu körpülərinin yanında hazırlanıb. Abidənin yuxarı hissəsi Yer kürəsinin formasında simvolik olaraq avtomobil, dəmir yolu, su və hava magistral yollarını birləşdirir.

Abidə "Gündoğdu" özəl müəssisə tərəfindən hazırlanıb. "İpək yolu" abidəsinin tikintisində ən müasir kompozisiya və bəzək materiallarından istifadə olunub.

Türkmənistanda nəqliyyat infrastrukturunun inkişafı bütün vilayətlərdə beynəlxalq səviyyəli iri layihələrin mühüm tərkib hissəsidir. Əsas diqqət multimodal logistika şəbəkəsinin yaradılmasına yönəldilib və bu ideya "İpək yolu" monumentində simvolik tərtibatını tapıb.

İlahə Əhmədova

URMİYA GÖLÜNÜN QURUMASINA İMKAN VERİLMƏYƏCƏK

İranın Qərbi Azərbaycan vilayətindəki Urmiya gölünün qurumasının qarşısının alınması üçün həyata keçirilən tədbirlər davam edəcək.

Bu sözləri İranın birinci vitse-prezidenti İshaq Cahangiri Urmiya gölünün qurumasının qarşısının alınması üçün həyata keçirilən işlərlə yerində tanış olduqdan sonra deyib. O bildirib ki, lazım gələrsə hökumət beynəlxalq maliyyə qurumlarından kredit cəlb edərək gölə digər mənbələrdən su yönəldəcək.

İ.Cahangiri əhalini əmin edib ki, İran hökuməti bütün imkanlardan istifadə edərək Urmiya gölünün qurumasına imkan verməyəcək.

Xatırladaq ki, Urmiya gölünə tökülən çayların quruması və havanın quraqlıq olması nəticəsində göldə quruma prosesi başlayıb. Son 5 ildə Urmiya gölünün suyunun 70 faizi quruyub.

İran hökuməti bu prosesin qarşısını almaq üçün müxtəlif layihələr həyata keçirir.

Rabil Kətanov

SÜRÜCÜSÜZ MİKROAVTOBUSLAR 11 SƏRNİŞİN ÜÇÜN NƏZƏRDƏ TUTULUB

Vyanada ictimai sərnişindaşıma xidmətini həyata keçirən "Vyana Şəhər Xətləri" Şirkəti sürücüsüz hərəkət edəcək mikroavtobusların sınaq yoxlanışına başlayıb.

Fransanın "Navya" şirkətinin istehsalı olan tam avtomatlaşdırılmış iki mikroavtobus gələn ilin əvvəlindən etibarən şəhərin yeni salınmış Zeeştadt Aspern rayonunda hərəkət edəcək. Xəttə buraxılmazdan əvvəl isə bu il ərzində mikroavtobuslar sınaqdan keçiriləcək, sərnişinlərlə hərəkət edəcəkləri marşrut üzrə test yoxlanışları aparılacaq və onların hərəkət cədvəli üzrə yol və ətraf ərazini "öyrənməsi" təmin ediləcəkdir. Çoxlu sayda sensorlarla təchiz olunmuş mikroavtobusların müvafiq proqram təminatı təkmilləşdirilməli, yeni texnologiyanın seriya istehsalına hazırlanması üçün bir sıra texniki işlər görülməli, eləcə də nəqliyyat qanunvericiliyində dəyişikliklər aparılmalıdır.

Saatda maksimum 20 km sürətlə hərəkət edəcək mikroavtobuslar 11 sərnişin üçün nəzərdə tutulub və nəqliyyatın sıxlığı az olan saatlarda marşruta buraxılacaq. Avstriya qanunvericiliyi sürücüsüz nəqliyyat vasitələrini qadağan etdiyinə görə, hərəkət vaxtı avtobusda nəzarəti həyata keçirən və lazım gələrsə onun hərəkətini nizamlayan sürücü-operator olacaqdır.

Elektrik enerjisi ilə hərəkət edən mikroavtobusların ictimai nəqliyyatda tətbiqi Vyana Şəhər Xətləri, Avstriya Texnologiya İnstitutu, Nəqliyyat Təhlükəsizliyi üzrə Kuratorluq, Avstriya Texniki Nəzarət Cəmiyyəti və "Siemens" şirkətinin 2020-ci ildək həyata keçirdiyi elmi-tədqiqat layihəsinin tərkib hissəsidir.

Elgün Niftəli

PAYTAXT SAKİNLƏRİ "FORMULA 1" YARIŞI ƏRƏFƏSİNDƏ TREK ƏTRAFINDA MANEƏSİZ HƏRƏKƏT EDƏ BİLƏCƏKLƏR

Paytaxt sakinləri "Formula 1" Azərbaycan Qran-Prisi ərəfəsində trek ətrafında maneəsiz hərəkət edə biləcəklər. Bunun üçün yarış həftəsi ərzində trek ərazisində yerləşən daimi yeraltı keçidlər gün boyu açıq olacaq. Həmçinin piyadalar trekin müəyyən yerlərində quraşdırılacaq müvəqqəti yerüstü keçidlərdən də istifadə edə biləcəklər.

Bu sözləri aprelin 9-da "Bakı Şəhər Halqası" Əməliyyat Şirkətinin marketinq və kommunikasiya şöbəsinin rəhbəri, milli mətbuat katibi Nigar Arpadarai deyib.

N.Arpadarai bildirib ki, nəqliyyatın hərəkətinin qadağan olunduğu ərazilər üç zonaya ayrılır. Birinci zonaya trekin əhatə etdiyi İçərişəhər, ikinci zonaya Azadlıq meydanı və onun yaxınlığında yerləşən digər ərazilər aiddir. Üçüncü zona isə BMT-nin 50 İlliyi küçəsini əhatə edir. Əlaqədar qurumlar tərəfindən bu ərazilərdə yaşayan sakinlərə, kirayənişinlərə və işgüzar fəaliyyətlə məşğul olanlara bütün zonalara giriş üçün eyni icazə sənədi təqdim olunacaq. İcazə sənədi yalnız "Formula 1" Azərbaycan Qran-Prisi zamanı yol məhdudiyyətlərinin tətbiq edildiyi müddət (aprelin 23-dən mayın 1-dək) üçün etibarlıdır. İcazə sənədini aprelin 12-dən 23-dək "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, 4 və 58 saylı mənzil kommunal istismar sahələrindən almaq mümkündür.

Qeyd edilib ki, icazə sənədi nəqliyyat vasitəsinin ön şüşəsinin sağ tərəfinin aydın görünən aşağı hissəsinə yerləşdirilməlidir. İtirilmiş, oğurlanmış və ya yararsız hala düşmüş sənəd yenisi ilə əvəz olunmayacaq. Yarış ərəfəsində yalnız icazə sənədinə sahib nəqliyyat vasitələri bu zonalara buraxılacaq və onların istənilən zonaya daxil olmasına icazə veriləcək.

"Bir və ikinci zonalarda nəqliyyatın hərəkətinə ancaq gecə vaxtı 00:00-dan 06:00-dək icazə veriləcək. Üçüncü zonada isə nəqliyyatın hərəkətinə gün ərzində giriş imkanı olacaq. İcazə sənədi olan avtomobillər istənilən vaxt bu zonaya daxil ola biləcəklər. Birinci zonaya giriş Azneft dairəsi, ikinci zonaya giriş Rəşid Behbudov küçəsi, üçüncü zonaya giriş isə Lermontov küçəsi (Şəlalələr parkı) tərəfdən olacaq", - deyə N.Arpadarai əlavə edib.

Bu il konsert və əyləncə proqramlarının "Baku Crystal Hall"-da keçirilməsi ilə əlaqədar Azneft dairəsindən Dövlət Bayrağı Meydanına qədər yolda nəqliyyatın hərəkətinin məhdudlaşdırılacağını vurğulayan N.Arpadarai deyib ki, yalnız yuxarıda qeyd olunan icazə sənədinə sahib nəqliyyat vasitələri bu əraziyə buraxılacaqlar.

EKOLOJİ BORC

Dünya Vəhşi Təbiət Fondu hesablayıb ki, əgər bütün dünyada istehlak Finlandiya səviyyəsində qalsaydı, bəşəriyyətə əslində olduğundan 3,6 dəfə böyük planet lazım gələrdi.

Bu il Finlandiya sakinlərinin ekoloji borcu günü aprelin 11-nə təsadüf etdi. Belə bir gün hər il bütövlükdə bütün dünya, ayrı-ayrılıqda hər bir ölkə üçün nəzərdə tutulur. Hesablamalar planetin bərpa olunan resursları bərpa etmək və tullantıları, ilk növbədə, qazıntı şəklində yanacaq mənbələrindən karbon-4-oksid kimi tullantıları udmaq bacarığı ilə müqayisədə həmin resursların istehlakı əsasında aparılıb.

Dünya Vəhşi Təbiət Fondunun Finlandiya bölməsinin baş katibi Liisa Rodever deyib: "Finlandiya üçün ekoloji borc gününün belə tez gəlməsi təşviş yaradır. Bizim istehlakda ifrata varmağımızın nəticələri, xüsusən gəlir səviyyəsi aşağı olan ölkələrdə hiss olunur, burada təbii müxtəliflik sürətlə azalır və insanlar özlərini doyurmaqda əziyyət çəkirlər".

İstər Finlandiyada, istərsə də bütün dünyada ifrat istehlakın əsas səbəbi nəqliyyatın və enerji sahəsinin əmələ gətirdiyi karbon qazı tullantılarıdır. Təbiətə meşələrin uda biləcəyindən xeyli çox karbon-4-oksid düşür.

Kənd təsərrüfatı digər mühüm səbəbdir. Meşələr şumluq torpaqlar və heyvandarlıq fermaları üçün qırılır. Bütün kənd təsərrüfatı yerlərinin təqribən 80 faizi bu və ya digər dərəcədə ət və heyvan mənşəli digər məhsulların istehsalı üçün istifadə olunur.

Lüksemburq sakinləri təbii resursları başqalarından daha sürətlə sərf edirlər, onların ekoloji borc günü fevralın ortalarına təsadüf edir. Honduras sakinləri üçün bu gün hamıdan gec qədəm qoyur və ilin son günü ilə bir vaxta düşür.

Nigar Cəfərli

YARIZARAFAT, YARIGERÇƏK

Nəfsin nə ağası ol, nə qulu. Nəfsin qatili ol.

Bəziləri tamam ağ eləyənə kimi mən elə bilirdim ki, hər şeyin ağı yaxşıdır.

Tez-tez deyirlər ki, gərək bağışlayam. Mənim isə bağışlamağa daha heç nəyim yoxdur.

Bəziləri üçün harda işləmək yox, haraya işləmək əsasdır.

Hətta qadınlar da qərarı kişi kimi versələr, yaxşıdır.

Allahın sənə nələr verdiyini dərk etsən, daha heç nə istəməzsən.

Vaxtında burulmayan qulağın sonralar kəsilmək ehtimalı var.

Görəsən hər kəsə qabiliyyətinə görə testindən yekə-yekə danışanlardan ən çox neçəsi keçər?

Bəziləri minimum savadla maksimum "ucalığa" necə yüksəlir?

13-cü mükafat alanda heç kəs demirdi ki, 13 nəhs rəqəmdir.

Analar övladlarına baxa bildikləri, övladlar analarına baxmaq istədikləri qədər baxırlar.

Əvvəllər deyilən çox şeyə inanırdıq deyə, yaşamaq da asan idi. İndi heç öz dediyimizə də inanmadığımızdan yaşamaq xeyli çətinləşib. Belə çıxır ki, günah bizim özümüzdədir?

Bəziləri xarici dildə də ana dilində yazdığı kimi yazırsa, vay xarici dildə oxuyanların halına.

Ruhumuzu pis şeylərlə doldurmaqdansa, ac qalması yaxşıdır.

Yoxsulluq sevginin düşmənidir. Düşməni kim sevir ki?

Ən qorxulu səhvlər dəfələrlə hesab ödəcəyin səhvlərdir.

Bütün günü danışanlar nə danışdıqlarının fərqində olmurlar.

Adamlar da yaşadıqları şəraitdən asılı olaraq, ərzaq məhsulları kimi korlana bilirlər.

Nəfsinə hər gün məğlub olan adam qalibiyyətin nə olduğunu bilməz.

Şərəfsiz yaşamaq yaşamaqdırsa, deməli, çox adam yaşayır.

Adam var əlindən tuturlar, adam var dilindən.

Sənə etibarım müştərilərin bəzi banklara etibarı qədərdir.

İnsaf, mərhəmət, xeyirxahlıqdan danışan adamlara niyə birtəhər baxırlar?

Yalanın ömrü qırx saniyə olsa belə, yenə çoxdur.

Ağıllı məsləhətə heç kəsin ehtiyacı yoxdur. Ağıllı onsuz da ağıllıdır. Axmaq isə özünü ağıllı saydığından özü başqalarına məsləhət verir.

Məni hər kəs özünün ehtiyacı olduğu qiymətə satır.

Mənim qəlbim cəmi bir dəfə qırılıb. O vaxtdan bu gündəyəm.

Kişi qadına arxa, qadın kişiyə arxayın olmalıdır.

Özümü bircə dəfə aldadandan, sağ gözüm belə sol gözümə etibar etmir.

Mənim başqalarının səhvlərində işim yoxdur. Öz səhvlərim mənə bəsdir.

Allah hər tərəfi görürsə, deməli məndən üz döndərməyib.

Əgər yaxşı bir "delikates" alınmırsa, qulağımı niyə tez-tez kəsirlər?

Hər adamda yaxşı nə isə olur. Geyimini nəzərdə tuturlarsa, mən də razı.

Ömrü boyu bir dəfə kişilik etməyən də kişilikdən danışır.

Əlini ağdan-qaraya vurmayanların hər işi yağ kimi gedir. Nəyəsə əl vurub korlamadıqları üçün?

Adətən, əyə bilmədiklərini sındırmağa çalışırlar.

Ən ucuz şey ağıldır? Hamı ağıl verir.

Əlini ağdan-qaraya vurmayanlara maaş yazılırsa, ən azı maaş qədər mükafat niyə yazılmamalıdır?

Ya danışdıqları, ya da eşitdikləri kimi yazanlar elə bilirlər ki, onlardan yaxşı yazan yoxdur.

Allahdan başqa heç kimdən qorxmadığını deyənlərin çoxu mərhəmətli olduğunu bildikləri üçün elə təkcə Allahdan qorxmur.

Hər yaramazdan yaramazlıqlardan qorunmağın bir yolunu öyrəndim.

Heç kəsin malı özünün deyil: mirasdır.

Özlərini ağıl dəryası sayanlardan bircə dəfə ağıllı iş görmüsünüz?

Rasif TAHİROV

DƏNİZ

20 aprel 2018-ci il № 29-32 (9215)

GƏMİÇİLİKDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 95 İLLİYİNƏ HƏSR OLUNMUŞ MİNİ-FUTBOL TURNİRİ KEÇİRİLİR

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin işçiləri və struktura daxil olan digər qurumların əməkdaşları arasında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş mini-futbol turniri keçirilir.

Turnirin ilk günündə "Bibiheybət" Gəmi Təmiri Zavodu (BGTZ) ilə Azərbaycan Dövlət Dəniz Akademiyasının (ADDA) və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin aparatı (AXDG) ilə Təlim-Tədris Mərkəzinin (TTM) komandaları qarşılaşıblar.

Hər iki oyun gərgin mübarizə şəraitində keçib.

BGTZ-ADDA oyunu gəmi təmirçilərinin tam üstünlüyü - 16:3 hesabı ilə başa çatıb. AXDG-TTM qarşılaşmasında isə Gəmiçiliyin aparatında çalışanlar əla oyun nümayiş etdirib və meydançanı 11:2 hesablı qələbə ilə tərk ediblər.

"AzFar"-ın stadionunda keçirilən növbəti turda "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin aparatı ilə Azərbaycan Dövlət Dəniz Akademiyasının, "Bibiheybət" Gəmi Təmiri Zavodu ilə Təlim-Tədris Mərkəzinin komandaları üz-üzə gəliblər.

AXDG-ADDA oyununda hesab 7:6, BGTZ-TTM qarşılaşmasında 10:1 olub.

Qeyd edək ki, Ümummilli Lider Heydər Əliyevin xatirəsinə həsr olunan yarışın keçirilməsində məqsəd həm də gənclərin asudə vaxtını səmərəli təşkil etmək, onların fiziki sağlamlığını möhkəmləndirmək, idmana maraqlarını daha da artırmaqdan və s. ibarətdir. Bütün bu məqsədlərə tam nail olmaq üçün isə gələcəkdə turnirin əhatə dairəsinin genişləndirilməsi nəzərdə tutulub.

GÜLƏŞ QAYDALARINDA BƏZİ DƏYİŞİKLİKLƏR EDİLİB

UNITED WORLD WRESTLING

Dünya Güləş Birliyi İcraiyyə Komitəsinin iclasında güləş qaydalarına bəzi dəyişikliklər təsdiqlənib. Bu dəyişikliklər aprelin 2-dən qüvvəyə minib.

Dəyişikliklərə əsasən, yarış vaxtı döşək rəhbərinin çağırışı ilə hakimlərin məsləhətləşməsi zamanı videotəkrara baxılmayacaq. Videotəkrara yalnız məşqçi tərəfindən etiraz edilərkən baxılacaq. Həmçinin yunan-Roma güləşində passiv xəbərdarlığı vermək üçün gözlənilən vaxt müddəti ləğv edilib, passivliyə görə parter tətbiq edilməsi isə hər hissədə 1 dəfə olmaq şərti ilə məhdudlaşdırılıb.

Neqativ güləş adlandırılan və qaydalara zidd hərəkətlərə görə, sərbəst güləşdə xəbərdarlıq rəqibə 1 xal, yunan-Roma güləşində xəbərdarlıq rəqibə 2 xal verilməklə qiymətləndiriləcək. Güləşmədən qaçmağa görə, sərbəst güləşdə xəbərdarlığa görə rəqibə 1, yunan-Roma güləşində isə 2 xal veriləcək. Xalçadan qaçma da güləşmədən qaçma kimi dəyərləndiriləcək, ancaq təhlükəli vəziyyətdə xalçadan qaçmağa görə hər iki güləş növü üzrə xəbərdarlıq rəqibə 2 xal verilməklə qiymətləndiriləcək.

Yunan-Roma güləşində hücum edən güləşçi ayaqdan istifadə edərsə əvvəlcə şifahi xəbərdarlıq ediləcək, ikinci dəfə isə xəbərdarlığa görə rəqibə 1 xal veriləcək. Yunan-Roma güləşində müdafiə olunan güləşçi ayaqdan istifadə edərsə əvvəlcə xəbərdarlıq və rəqibə 2 xal verilməklə qiymətləndiriləcək, ikinci dəfə isə yarışdan kənarlaşdırılacaq və qələbə digər idmançıya veriləcək.

Qəsdən kobud qayda pozuntusuna yol verən güləşçi qırmızı kartla cəzalandırılacaq.

GİMNASTIMIZ AVROPA ÇEMPİONU OLUB

Milli Gimnastika Arenasında keçirilən batut, ikili mini-batut və tamblinq üzrə 26-cı Avropa çempionatında Azərbaycan millisinin üzvü Mixail Malkin qızıl medal qazanıb.

Tamblinq yarışında 77,400 bal toplayan idmançımız bütün rəqiblərini qabaqlayaraq Avropa çempionu olub.

İkinci yerdə danimarkalı Adam Mathiesen, üçüncü yerdə isə rusiyalı Vadim Afanasyev qərarlaşıblar.

Çinin Haikou şəhərində təşkil olunmuş "2018 CFA Belt and Road İnternational Beach Soccer Cup" beynəlxalq turnirdə iştirak edən çimərlik futbolu üzrə Azərbaycan milli komandası yarışın qalibi olub.

Sonuncu oyunda Çexiya yığma komandası ilə qarşılaşan millimiz 8:3 hesabı ilə qələbə qazanıb. Sabir Allahquliyev, Ramil Əliyev və Orxan Məmmədovun dubl etdiyi oyunda digər qolları Asif Zeynalov və İlkin Hacıyev vurublar.

ÇİMƏRLİK FUTBOLU ÜZRƏ AZƏRBAYCAN MİLLİSİ ÇİNDƏ BEYNƏLXALQ TURNİRİN QALİBİ OLUB

Rəqib qapılarından 5 top keçirən Ramil Əliyev turnirin ən məhsuldar oyunçusu olub.

Qeyd edək ki, millimiz əvvəlki oyunlarda Macarıstana 7:3, Çinə isə 7:2 hesabı ilə qalib gəlib.

İNSAN BƏDƏNİNDƏ YENİ ORQAN AŞKAR EDİLİB

Nyu-York Universitetinin alimləri tədqiqat zamanı yeni orqan aşkar ediblər. Bədəndə amortizator funksiyasını yerinə yetirən həmin orqan dəri altında maye ilə dolu şəbəkədir. Yeni orqanın kəşfi xərçəng hüceyrələrinin orqanizmdə çoxalma və yayılmasının öyrənilməsinə yardım göstərə bilər.

Rusiyanın Altapress.ru saytı xəbər verir ki, əvvəllər məlum olmayan struktur xəstənin öd kanallarının endoskopiyası zamanı aşkar edilib. Alimlər tor şəklində olan birləşdirici toxumalarda boşluqlar sistemini üzə çıxarıblar.

Dəri altındakı maye kimi də təsvir edilən sistem digər orqan və əzələ sistemi ilə əlaqədardır. Bir-biri ilə əlaqəli bölmələrdən ibarət olan orqanda hərəkət halında olan maye təbəqə yerləşib. Yeni orqanın həzm sistemi, ağciyər, sidik yolu, arteriya və damarlar, əzələ ətraflarını əhatə etdiyi bildirilir, bir hissəsi isə ürək, qan damarları və limfa düyünlərində yerləşir.

Alimlərin qənaətinə əsasən boşluqlar şişlərə və birləşdirici toxumanın böyüməsinə səbəb olur, həmçinin xərçəng şişlərinin inkişafına imkan yaradır.

ORQANİZMİN "DİRİJORU"

Məlum olduğu kimi, artıq çəki çox vaxt maddələr mübadiləsinin sürəti ilə bağlıdır. Bəs metabolizmi necə sürətləndirmək və arıqlamaq olar?

Maddələr mübadiləsi insan orqanizminin dirijorudur. Onun üç növü var: yavaş, sürətli və normal. "Medvesti" saytı ixəbər verir ki, mübadilə proseslərinin birinci tipinə malik olan adamların bu baxımdan bəxti gətirməyib. Çünki hətta minimum lüzumsuz piy, kalori, yaxud pəhrizin azacıq pozulması yeni kiloqramların əmələ gəlməsinə yol açır. Maddələr mübadiləsi yavaş gedəndə orqanizmə daxil olan kalorilər piyə çevrilir. Deməli, uzun müddətə arıqlamaq üçün metabolizm nizamlanmalıdır.

Maddələr mübadiləsinin ikinci tipi xas olan adamlar adətən doyunca yeyirlər və əsla kökəlmirlər.

Maddələr mübadiləsinin üçüncü tipinə malik olan adamlar qaməti saxlamaq üçün idmanla məşğul olmalı, münasib şəkildə qidalanmalıdırlar.

Amma maddələr mübadiləsi tipini müəyyənləşdirmək bir o qədər də asan deyildir. Bunun üçün çoxlu hormon analizi vermək lazımdır. Bundan əlavə, ayrı-ayrı diyetoloqların metabolizmə münasibəti tamamilə fərqlidir. Unutmayın ki, maddələr mübadiləsini yaxşılaşdırmaq, sağlam və gümrah olmaq üçün sadə üsullar var. Bunun üçün mütləq təmiz havada qaçmaq və ya gəzmək lazımdır. İnsanın bədənindəki piylər orqanizmin yanacağıdır. Gəzinti zamanı qanı saflaşdıran oksigen artıq kalorinin və dərialtı piy sellülozunun sərf olunmasına kömək edir. Ancaq piy yalnız orta gərginlik zamanı parçalanır. Bunun üçün sürətli addımlarla gəzmək kifayətdir.

Yaşıl çay maddələr mübadiləsini yavaşıdan toksinləri orqanizmdən çıxarmağa, şişkinliyi azaltmağa kömək edir. Çayın tərkibindəki kofein kalorilərin sürətlə sərf olunmasına kömək edir və ürəyin fəaliyyətini yaxşılaşdırır. Bununla belə, gündəlik norma 2-3 fincandan artıq olmamalıdır.

Şirin giləmeyvə və meyvələrlə yaxşı uyğunlaşan darçın da metabolizmi yaxşılaşdırmaq üçün gözəl vasitədir. Elmi tədqiqatlar göstərir ki, darçın maddələr mübadiləsini 20 dəfə sürətləndirir. Gündə yarım çay qaşığı darçın şəkərin sürətlə həzm olunmasına və qanda onun miqdarının azalmasına kömək edir. Belə ki, qlükoza düşəndə, iştaha da kəsilir.

Doyunca səhər yeməyi maddələr mübadiləsini sürətləndirməyin mütləq şərtidir. Səhər yeməyindən imtina edən insanların orqanizmi "enerjiyə qənaət rejimi"ndə işləməyə davam edir, ona görə də kalorilər sərf olunmur.

Metabolizmi sürətləndirməyin daha bir vasitəsi keyfiyyətli yuxudur. İnsan dərin yuxuda olanda, orqanizm külli miqdarda böyümə hormonu – somatropin hasil edir və bu da maddələr mübadiləsini yaxşılaşdırır, beyin hüceyrələrinin yenilənməsinə kömək edir. Somatropin iştahanı küsdürməklə, aclıq hormonunun – qrelinin əmələ gəlməsinin qarşısını alır.

Kaliforniyalı diyetoloqlar müəyyən ediblər ki, gündə 320 milli qram maqnezium metabolizmi xeyli yaxşılaşdırır. Bu mineral piylərin əriməsinə kömək edir. Buğda kəpəyinin, günəbaxan tumlarının, paxlalıların, ispanağın, treska balığının və bəzi pendir sortlarının tərkibində çoxlu maqnezium var.

XƏSTƏNİN İNFARKT KEÇİRDİYİNİ NECƏ MÜƏYYƏN ETMƏK OLAR?

Son vaxtlar infarkt ən geniş yayılmış ürək xəstəliklərindən biridir. Lakin xəstənin infarkt keçirib-keçirmədiyini necə müəyyən etmək olar?

Respublika Neyrocərrahiyyə Xəstəxanasının həkim-kardioloqu Nərgiz Məmmədova bu barədə deyib: "Bəzən həkimlər də onu müəyyənləşdirməkdə çətinlik çəkirlər. Bunun üçün ilk növbədə analiz və elektrokardioqram müayinəsi lazım olur, çünki infarkt zamanı hökmən ağrı olması şərt deyil. Məsələn, şəkərli diabeti olan xəstələrdə infarkt ağrısız formada da gedə bilər, bəzən xəstələrin 30 faizində ağrı olmur. Digər tərəfdən də sinə nahiyəsində yandırıcı ağrı olmasının səbəbləri çoxdur və hər ağrını da ürəkağrısı kimi qəbul etmək olmaz.

Döş sümüyünün arxasında yandırıcı ağrı olduqda xəstəni rahat oturtmaq lazımdır. Həmin anda hərəkət etmək çox zərərlidir. Ağrının səbəbi bilinməsə də, onu ürəkağrısı kimi qəbul etmək lazımdır. Ona görə ki, başqa səbəblərdən olan ağrılar ürək üçün təhlükəli deyil. İlk növbədə ürəkağrısı aradan qaldırılmalıdır, çünki gecikmək ürək əzələsini itirmək deməkdir. Şəkərli diabet xəstələri, hipertoniyalı xəstələr, siqaret çəkənlər, ailəsində erkən ürək xəstəliyinə tutulanlar, 45 yaşdan yuxarı olanlar, xolesterini yüksək olanların ürək xəstəliyinə tutulma riski daha yüksəkdir".

İNSULTUN TƏHLÜKƏLİ FƏSADLARININ QARŞISI ALINACAQ

Mançester Universitetinin alimləri insultun ilkin mərhələsində iltihabı azaltmağa kömək edən iltihab əleyhinə preparat işləyib hazırlayıblar.

"Meddaily" saytı xəbər verir ki, söhbət iltihab xəstəliklərinin, o cümlədən revmatoid artritin terapiyasında istifadə olunan interleykin-1 reseptorunun süni şəkildə sintez olunan antaqonistindən – Anakinra (Kineret) vasitəsindən gedir.

Məlumdur ki, insultdan sonra güclü iltihab başlayır və xəstənin vəziyyətini ağırlaşdırır. Eksperimentlər göstərib ki, preparat insult və subaraxnoidal qan sızmaları zamanı iltihabı azaldır. Tədqiqata 80 könüllü cəlb edilib. Üç gün ərzində onlara altı doza preparat, yaxud plasebo verilib. Preparatın ilk dozası insult əlamətlərinin yaranmasından sonra altı saat ərzində verilib.

Kineret nəzərəçarpacaq əlavə təsir göstərməyib. Bu zaman iltihab markerləri terapiyadan əvvəl və terapiya zamanı götürülmüş qan analizlərinə əsasən ölçülüb. Alimlər vasitəni yalnız işemik insult keçirmiş adamlar üzərində sınaqdan keçiriblər. Məlum olub ki, inyeksiyalar iltihab göstəricilərini xeyli azaldıb. Maraqlıdır ki, daha əvvəl alimlər interleykin-1 reseptorunun insultdan sonra iltihab göstəricilərini və beynin zədələnməsi dərəcəsini artırdığını aydınlaşdırıblar. Kineret məhz interleykin-1 reseptorunun təsirini bloklayıb.

ÇOX HƏRƏKƏT EDƏNLƏR OTURAQ HƏYAT KEÇİRƏNLƏRƏ NİSBƏTƏN DAHA AZ YORULUR

Fəal və hərəkətli olmaq sağlam həyat tərzinin ən vacib şərtlərindən biridir. Gün ərzində daha çox hərəkət edənlərin oturaq həyat keçirənlərə nisbətən daha az yorulduğu sübut edilib.

Ən azı həftədə bir dəfə 20 dəqiqə idmanla məşğul olmaq əzələlərin gücünü və dözümlülüyün artırır, ürəyin işini stimullaşdırır, toxumalara oksigenin daşınmasını asanlaşdırır. Kifayət qədər maye içilmədikdə də orqanizmdə yorğunluq hissi əmələ gəlir. Az su içənlərin qanı laxtalanmaya daha meyillidir. Qanla laxtalanma səviyyəsi yüksək olanlar özlərini daim yorğun hiss edirlər.

Orqanizmdə dəmir çatışmazlığı halsızlıq, zəiflik və yorğunluq hissi yaradır. Dəmir çatışmazlığı olan xəstələrin orqan və toxumaları yetərincə oksigenlə qidalanmır. Səhərlər normal yeməyənlər, şirniyyat və ayaqüstü qidalara üstünlük verənlər də balanslaşdırılmamış və keyfiyyətli qidalanmadıqlarına görə gün boyu yorğun olurlar. Fasiləsiz iş rejimi, istirahətə vaxt ayırmamaq, hətta məzuniyyət vaxtında da işləmək yorğunluq yarada bilər.

Yatmazdan əvvəl smartfon telefona və ya kompüterə baxmaq da yorğunluğa səbəb olur. Gün ərzində həddindən çox kofe içmək yuxunu qaçırır, yuxu pozğunluğu isə xroniki yorğunluğa aparıb çıxarır.

BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1029, Bakı şəhəri,
Heydər Əliyev prospekti, 152

TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76;
30-67 (daxili)

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 1168